QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 137 (5368) 3 **avqust** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Prezident İlham Əliyev yenidən qurulan Pirşağı-Novxanı və Binəqədi-Novxanı-Corat yollarının açılışında iştirak edib

Səh 2





Şuşa məscidinin bənzəri olan məscid işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır 6

"The Jerusalem Post": Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş təcavüzkar dövlətdir 8

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində müşavirə keçirilib 5

Musa Quliyev: Azərbaycanda yoxsulluğun səviyyəsi 5 faizə düşüb 4

Evelina Zakamskaya: "Azərbaycan xalqına böyük səmimiyyətlə və məhəbbətlə yanaşıram" 5

Qarabağın təbii sərvətləri belə talan edilir və ya bilmədiyimiz həqiqətlər... 7

10 Serj Sarkisyanın "çarlığı": boşalan Ermənistan

13 Erməniпərəst Zahava Qalyon nə istəyir?

16 "Qarabağ" Çempionlar Liqasının "pley-off"unda!






















# Prezident İlham Əliyev yenidən qurulan Pirşağı-Novxanı və Binəqədi-Novxanı-Corat yollarının açılışında iştirak edib



***Avqustun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan Pirşağı-Novxanı dənizkənarı və Binəqədi-Novxanı-Corat avtomobil yollarının açılışında iştirak edib.***

***AZƏRTAC xəbər verir ki, "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdi.***

Bildirildi ki, Pirşağı-Novxanı avtomobil yolu dənizkənarı dairəvi yola birləşməklə Sumqayıt şəhərindən Abşeron yarımadasının şimal və şimal-şərq hissələrinə rahat və maneəsiz gediş-gəlişi təmin edəcək. Beləliklə, layihənin həyata keçirilməsi nəticəsində Abşeron yarımadasının şimal-şərq hissəsindən şəhərə daxil olmadan Bilgəh, Nardaran, Kürdəxanı, Pirşağı, Fatmayi, Goradil, Novxanı, Saray, Masazır, Xırdalan və Sumqayıt istiqamətlərində hərəkət etməklə avtomobillərin Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi və Bakı-Şamaxı-Yevlax magistral yollarına çıxışı təmin ediləcək. Bu isə Bakıda avtonəqliyyat sıxlığının azalmasına müsbət təsir göstərəcək.







Bu yol Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Abşeron yarımadasının şimal hissəsində sahil boyunca salınıb. Yolun uzunluğu 13,5 kilometrdir.

*Ardı Səh. 3*

# Prezident İlham Əliyev yenidən qurulan Pirşağı-Novxanı və Binəqədi-Novxanı-Corat yollarının açılışında iştirak edib

Əvvəli Səh. 2

Layihəyə uyğun olaraq ikizolaqlı yolun hərəkət hissəsinin eni 9 metrdir. Sahil boyunca bəzi ərazilərdə mövcud yolun eni genişləndirilib. Yolun həm Novxanı, həm də Pirşağı qəsəbələrindən keçən hissələrində eni 3-4 metrdən 9 metrə çatdırılıb. Bəzi ərazilərdə isə yol tamamilə yeni yataq üzrə inşa olunub. Vətəndaşların rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yol boyunca yeni piyada səkiləri də tikilib. Yolun bu cür müasir səviyyədə inşası, ilk növbədə, nəqliyyatın hərəkətinin yüksək səviyyədə təmini, baş verə biləcək tıxacların qarşısının alınması, Bakı şəhərinin qəsəbələrinin və kəndlərinin sakinlərinin sosial məsələlərinin həlli baxımından böyük rol oynayır. Layihənin icrası həm də paytaxtın dənizkənarı turizm məkanlarına daha tez və rahat çatmaq, turizm sektorunun inkişafına dəstək vermək baxımından mühüm əhəmiyyət daşıyır.






Pirşağı-Novxanı avtomobil yolu Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, bu il reallaşdırılacaq 40 kənd və qəsəbələrarası avtomobil yolu layihələrindən biridir. Avtomobil yolunun tikintisi texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə aparılıb.

Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycan Prezidenti yeni yolda avtomobili idarə etdi.

X X X

Sonra dövlətimizin başçısı yenidən qurulan Binəqədi-Novxanı-Corat avtomobil yolunun açılışında iştirak etdi.

Azərbaycan Prezidentinin Sərəncamına uyğun olaraq bu il ölkəmizdə reallaşdırılan 40 kənd və qəsəbələrarası avtomobil yolu layihələri çərçivəsində bu yol da müasir səviyyədə yenidən qurulub. Layihəyə uyğun olaraq yolun hərəkət hissəsi 12,5 metrədək genişləndirilib. Yol iki gediş, iki gəliş olmaqla dörd hərəkət zolağından ibarətdir. Layihə çərçivəsində Novxanı qəsəbəsindən keçən hissədə yeni su və kanalizasiya xətlərinin çəkilişi işləri də aparılıb. Yolun müxtəlif hissələrindəki kəsişmələrdə yeni dairələr inşa olunub. Bu isə hərəkətin intensivliyini və təhlükəsizliyini təmin etmək üçün mühüm rol oynayır. Bundan başqa, Novxanı qəsəbəsində dəmir yolu və su kanalı üzərində yerləşən mövcud körpülər də əsaslı şəkildə yenidən qurulub, onların eni 7 metrdən 12,5 metrə qədər genişləndirilib.

Qeyd edək ki, bu avtomobil yolu uzun müddət təmir olunmadığı üçün deformasiyaya uğramışdı və yol boyunca dağılmış hissələr yaranmışdı. Üstəlik, bəzi ərazilərdə piyada səkilərinin olmaması vətəndaşların normal və təhlükəsiz hərəkətinə də çətinlik yaradırdı. Avtomobil yolunun tikintisi ilə bu problemlər əsaslı surətdə aradan qaldırılıb. Bu layihənin icrası nəticəsində 5 yaşayış məntəqəsinin 72 min nəfər əhalisinin gediş-gəlişi xeyli asanlaşıb. Dövlətimizin başçısı yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.





X X X

Hər iki avtomobil yolunun açılışından sonra xatirə şəkilləri çəkdirildi.



# Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının üzvlərinin sayı 16 mini ötüb

***Müstəqil Azərbaycan dövlətinin quruculuq prosesi bilavasitə Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlıdır. 1992-ci ilin noyabrında Naxçıvanda ulu öndər Heydər Əliyevin liderliyi ilə yaradılan partiya dahi şəxsiyyətin milli dövlətçilik konsepsiyasını dönmədən həyata keçirib. AZƏRTAC xəbər verir ki, bu fikirlər Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının şura iclasında səsləndirilib.***

İclasda bu ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələr barədə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli məruzə edib. Bildirilib ki, ölkəmizin siyasi, iqtisadi, mədəni yüksəlişində əhəmiyyətli rol oynayan, ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası bu il özünün 25-ci ildönümünü böyük siyasi nailiyyətlərlə qeyd edir. Naxçıvan şəhərinin müasirliklə qədimliyin vəhdətinə, yüksək səviyyədə inkişafa bariz nümunə olan bugünkü siması məhz bu siyasətin nəticəsidir. Naxçıvanın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi şəhərimizin beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi nüfuzunu daha da artıracaq.

Qeyd edilib ki, partiyanın Naxçıvan Şəhər Təşkilatı öz fəaliyyətini Yeni Azərbaycan Partiyasının 2013-cü ilin iyununda keçirilən V qurultayı, partiyanın Muxtar Respublika Təşkilatının 2014-cü ilin noyabrında keçirilən V konfransı və Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il martın 16-da keçirilən iclasında qarşıya qoyulan vəzifələrin ardıcıl icrası istiqamətində qurub. Təşkilat ölkəmizin, o cümlədən muxtar respublikanın və Yeni Azərbaycan Partiyasının ümumi inkişaf tempinə adekvat fəaliyyət göstərməyə çalışıb. Bu baxımdan 2017-ci il üçün iş planında nəzərdə tutulan tədbirlərin vaxtlı-vaxtında və yüksək səviyyədə həyata keçirilməsi, ilk təşkilatlarla işin gücləndirilməsi, siyasi-ideoloji işdə və partiyaya yeni üzvlərin cəlb edilməsi məsələsində keyfiyyət amili prioritet vəzifə olub.

Diqqətə çatdırılıb ki, ötən müddətdə təşkilatda 6 İdarə Heyəti, 2 şura yığıncağı, əlamətdar və tarixi hadisələrlə bağlı 4 elmi-praktik konfrans, 2 kütləvi tədbir, 1 dəyirmi masa keçirilib. Bu dövrdə partiyaya 686 nəfər üzv qəbul olunub ki, bunların da 406 nəfərini (59 faiz) qadınlar, 668 nəfərini (97,4 faiz) gənclər təşkil edir. Nəticədə, 2017-ci il iyulun 1-nə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı üzvlərinin sayı 16 min 650 nəfərə çatıb.

Sonra məruzə ətrafında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayevanın, ərazi ilk partiya təşkilatı sədrlərindən şura üzvü Elnur İbrahimovun, Gənclər Birliyinin üzvü Tünzalə Dilanovanın çıxışları dinlənilib. İclasda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı, şura üzvü Vüqar Səfərov çıxış edərək Naxçıvan şəhərində həyata keçirilən quruculuq işləri haqqında ətraflı məlumat verib, qarşıda duran vəzifələrdən danışıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində müşavirə keçirilib

Avqustun 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) müşavirə keçirilib. DQİDK-nın mətbuat xidmətindən bildiriblər ki, tədbirdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin önəminə toxunan komitə sədri Mübariz Qurbanlı xalqımızı vahid ideologiya - Azərbaycançılıq ətrafında birləşdirən amillərin onun zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələri ilə yanaşı, həm də İslam dini olduğunu deyib.

M.Qurbanlı xalqın dini dəyərlərinin və mədəniyyətinin qorunması istiqamətində dövləti-



mizin başçısı İlham Əliyevin apardığı məqsədyönlü siyasətə diqqət çəkib. "İslam Həmrəyliyi İli" ilə bağlı həyata keçirilən tədbirlər barədə məlumat verən M.Qurbanlı Prezident İlham Əliyevin Sərəncamı ilə hazırlanan Tədbirlər Planına əsasən Dövlət Komitəsinin müvafiq qurumlarla gördüyü işlər, planlaşdırılan tədbirlər və qarşıda duran vəzifələrdən danışıb.

Gündəliyə uyğun olaraq, Dövlət Komitəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva və Lənkəran bölgəsi üzrə şöbənin müdiri Qağayı Məmmədovun hesabat məruzələri dinlənilib. Məruzələrdə komitənin fəaliyyətinin kütləvi informasiya vasitələrində işıqlandırılmasının təşkili, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi tərəfindən həyata keçirilən tədbirlər, bölgədəki dini vəziyyət haqqında məlumat verilib. Müşavirədə DQİDK-nın sədri, sədr müavinləri, Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

# Musa Quliyev: Azərbaycanda yoxsulluğun səviyyəsi 5 faizə düşüb



Azərbaycanda yoxsulluqla mübarizə ciddi nəticələr verib, 2001-ci ildən ötən dövr ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizə düşüb. Bunu Milli Məclisin deputatı Musa Quliyev deyib. /Trend/

Deputat qeyd edib ki, son 14 ildə ölkədə minlərlə yeni müəssisə yaradılıb, 1,5 milyondan artıq yeni iş yeri açılıb. Onların da 1 milyon 200 mini daimi iş yerləridir. M.Quliyev bildirib ki, Azərbaycan dövləti sosial müdafiəyə daha çox ehtiyacı olan təbəqənin, o cümlədən qaçqın və məcburi köçkünlərin məşğulluğunun təmin edilməsinə xüsusi həssaslıqla yanaşır. M.Quliyev deyib ki, Azərbaycanın sosial dövlət quruculuğu strategiyasının ana xətti olaraq əhalinin sosial-mədəni ehtiyaclarının yüksək səviyyədə qarşılanması siyasəti nəzərdə tutulur. Bu xəttin reallaşması nəticəsində son 14 ildə ölkəmizdə 3000-dən çox təhsil müəssisəsi, 600-dən artıq tibb müəssisəsi ya yenidən tikilmiş, yaxud da əsaslı təmir olunaraq müasir avadanlıq və cihazlarla təchiz edilərək vətəndaşların istifadəsinə verilib.

# Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə qeydiyyatla bağlı 4 min 574 müraciət daxil olub

***Bu ilin birinci yarımilində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə 4 min 574 müraciət daxil olub. AZƏRTAC xəbər verir ki, bu faktlar Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində 2017-ci ilin birinci yarımilinin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş tədbirdə səsləndirilib.***



Xidmətin rəisi, baş miqrasiya xidməti müşaviri Şahin Nəbiyev məruzə ilə çıxış edərək bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş strateji inkişaf xəttinin uğurla davam etdirilməsi nəticəsində respublikamız iqtisadi inkişaf sürətinə görə dünya ölkələri arasında öncül mövqelərdən birini tutub. Ötən illərdə muxtar respublika da sosial-iqtisadi baxımdan sürətlə inkişaf edib. İqtisadi fəallığın artması, yeni iş yerlərinin açılması, eyni zamanda, miqrasiya sahəsində qanunvericiliyin sadələşdirilməsi və təhlükəsizliyin tam təmin edilməsi miqrantların axınını sürətləndirib, bu da, öz növbəsində, miqrasiya proseslərinə nəzarətin gücləndirilməsini zərurətə çevirib.

Hesabat dövründə xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin aşkar edilməsi istiqamətində müntəzəm tədbirlərin həyata keçirildiyini bildirən Şahin Nəbiyev qeyd edib ki, müəyyən edilmiş inzibati pozuntu halları ilə bağlı müvafiq qərarlar qəbul olunub. Belə ki, qeydiyyatsız olan, qanunsuz yaşayan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 174 əcnəbidən 75-i barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən cərimə inzibati tənbeh növü tətbiq edilib. Onların 82-si 48 saat müddətində ölkə hüdudlarından kənara çıxarılıb, 14-ü isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılmaqla girişlərinə müəyyən müddətə məhdudiyyət qoyulub. Bu dövrdə miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozmuş, lakin inzibati məsuliyyətə cəlb etməyə imkan verən yaş həddinə çatmamış 22 əcnəbi barəsində inzibati işin başlanılmasının rədd edilməsi barədə qərar qəbul olunub. Vurğulanıb ki, muxtar respublikada əcnəbilərin və vətəndaşlığı olmayanların haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazələrinin verilməsi ilə bağlı işəgötürənlər tərəfindən xidmətə 22 müraciət daxil olub. Onlardan 15-i icra edilib, 7-si isə hazırda icra mərhələsindədir. Bundan əlavə, həmin dövrdə Miqrasiya Məlumat Mərkəzinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər və Azərbaycan Respublikasının vətəndaşları tərəfindən miqrasiya sahəsində qüvvədə olan qanunvericilik, müraciətlərin icrası vəziyyəti və digər məsələlərlə bağlı 164 müraciət olub. Hər bir müraciət tam, dəqiq və operativ cavablandırılıb. Sonra məruzə ətrafında çıxışlar olub.

# Muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 100 milyon manatdan çox olub

***Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 2017-ci il 1 iyul tarixinə muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 101 milyon 825 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 5 milyon 324 min manat, uzunmüddətli kredit qoyuluşu isə 96 milyon 501 min manat təşkil edib.***



AZƏRTAC xəbər verir ki, bu faktları Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində 2017-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə dair keçirilən iclasda idarənin sədri vəzifəsini icra edən Orxan Abdullayev səsləndirib.

Bildirilib ki, kreditləşmədə əsas məqsəd aqrar sektorun inkişafı, ixraca yardım və daxili bazarı qorumaq, kiçik və orta sahibkarlığın inkişafına nail olmaqdır. Eyni zamanda, muxtar respublika əhalisinə verilmiş 7 milyon 95 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 2 milyon 120 min manat məbləğində verilmiş ipoteka kreditləri vasitəsilə vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, real sektor da dəstəklənib. 2017-ci ilin 6 ayı ərzində bank və kredit təşkilatları tərəfindən 11 milyon 307 min manat kredit verilib ki, bunun da 2 milyon 382 min manatı qısamüddətli, 8 milyon 925 min manatı isə uzunmüddətli kreditlərdir.

"Muxtar respublikada təklif edilən faiz dərəcəsi ölkəmizin iqtisadi rayonları arasında kreditlər üzrə tətbiq olunan ən aşağı faiz dərəcələridir", - deyən Orxan Abdullayev qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilib. Artıq muxtar respublikada vətəndaşların ödəniş kartları vasitəsilə vergi və rüsumların, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumların, gömrük rüsumlarının, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarının, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsinin elektron ödəniş formasında aparılması təmin edilib. Ödəniş sistemlərinin inkişaf etdirilməsi məqsədilə POS-terminalların quraşdırılması diqqət mərkəzində saxlanılıb. Belə ki, cari ilin birinci yarısında 48 POS-terminal quraşdırılaraq, onların sayı 1250-yə çatdırılıb. POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 611 min manat artaraq 15 milyon 916 min manat olub. Vətəndaşlara müasir bank xidməti göstərilməsi məqsədilə 56-sı Naxçıvan şəhərində, 47-si isə rayon mərkəzlərində və böyük kəndtipli yaşayış mərkəzlərində olmaqla, 103 bankomatla xidmət göstərilib.

İclasda bank əmanətlərinin də əhəmiyyətinə toxunularaq bildirilib ki, 2017-ci il 1 iyul tarixinə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 6 milyon 574 min manat, o cümlədən xarici valyuta ilə 2 milyon 815 min manat təşkil edir. Banklara qoyulan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 309 min manat artıb. Eyni zamanda, banklara qoyulan əmanətlər üçün müddətindən və növündən asılı olaraq 2 faizdən 15 faizədək illik faiz ödənilir.

Tədbirdə gələcəkdə görüləcək işlərdən də danışılıb. Sonra çıxışlar dinlənilib.

# "Böyük Bakının Regional İnkişaf Planı" şəhərin inkişafı üçün böyük bir proqnoz və strateji sənəddir

***"Böyük Bakının Regional İnkişaf Planı" 2035-ci ilədək dövrü əhatə edəcək. Layihə üzrə aparılan işlər artıq başa çatıb. Şəhərin baş planında onun sosial-iqtisadi inkişafının bir çox istiqamətləri öz əksini tapıbmı?. Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə AZƏRTAC-a müsahibəsində bu məsələyə aydınlıq gətirərək bildirib ki, bir neçə ay bundan əvvəl "Böyük Bakının Regional İnkişaf Planı" müzakirə edilərək ictimaiyyət tərəfindən müsbət qəbul olunub.***



Hazırda isə layihə Nazirlər Kabineti tərəfindən təsdiqlənmək ərəfəsindədir. Onun sözlərinə görə, Baş Planın əsas vəzifəsi şəhərin gələcək inkişaf istiqamətini müəyyənləşdirməkdən ibarətdir: "Bu, şəhərin inkişafı üçün böyük bir proqnozdur və strateji sənəddir".

E.Qasımzadə qeyd edib ki, "Böyük Bakının Regional İnkişaf Planı"nda ilk növbədə müzakirə olunan əsas məsələ paytaxtın sosial-iqtisadi inkişafıdır: "Təbii ki, şəhər inkişaf etdikcə, əhalisi də artır. Azərbaycanda başqa ölkələrlə müqayisədə əhali artımı intensivdir. Odur ki, ölkə əhalisinin bütün sosial sahələrlə təmin etmək problemi var. Planda bu məsələlər öz əksini tapıb və şəhərin mühəndis infrastrukturunun da inkişafı nəzərdə tutulur". Planın müzakirəsində Memarlar İttifaqının fəal iştirak etdiyini və qurumun tanınmış mütəxəssislərinin layihə ilə bağlı öz fikirlərini bildirdiklərini deyən E.Qasımzadə vurğulayıb ki, Azərbaycan Memarlar İttifaqı tərəfindən qədim məhəllələrin gələcəyi haqqında maraqlı bir təklif hazırlanıb və dövlət başçısına təqdim edilib. Hazırda müzakirə olunur.

# "Azərbaycan əhalisi arasında 25-29 yaşlı gənclər üstünlük təşkil edir"



Azərbaycan əhalisinin sayı ilin əvvəlindən (9810000) 0,3 faiz artaraq 9843030-u ötüb. Onlardan 49,9 faizini kişilər, 50,1 faizini qadınlar təşkil edir. Lakin əhali artımında ölkəmizdə son 5 ildə azalma müşahidə olunur. Belə ki, əgər 2011-ci ildə əhalinin illik artımı 1,4 faizə bərabər idisə, 2016-cı ildə bu rəqəm 1,1 faizə enib. AZƏRTAC Dövlət Statistika Komitəsinin "Azərbaycanın demoqrafik göstəriciləri" rəsmi nəşrinə istinadla xəbər verir ki, əhalinin məskunlaşmasına görə, Bakı şəhəri 2245,8 min nəfərlə (1 kvadratkilometrə 1049 nəfər düşür) birinci yerdədir. Ən seyrək məskunlaşma isə Kəlbəcər-Laçın iqtisadi rayonunda qeydə alınıb. İşğal altında olan həmin ərazilərin 251,4 min sakini var (1kvadratkilometrə 39 nəfər düşür). Əhali arasında yaş qrupu baxımından cari ildə 25-29 yaşlı gənclər üstünlük təşkil edir (9,6 faiz). Yaş qrupu üzrə ən aşağı çəki 2,5 faizlə 65-69 yaşlı sakinlərə aiddir. Ötən ilin statistikasına əsasən, 25-29 yaşlı gənclərin sayı nisbətən azalıb, 65-69 yaşlı sakinlərin sayı isə artıb. Ötən ilin statistikasına görə, ölkə əhalisinin orta savadlılıq dərəcəsi 99,8 faizdir. Həmin göstərici kişilər arasında 99,9 faiz, qadınlar arasında isə 99,7 faiz olmaqla son səkkiz ildə dəyişməz qalıb. Yaşı 15-dən yuxarı ali və orta təhsili olan şəxslər isə hər 1000 nəfərdən 972-ni təşkil edir.

# Evelina Zakamskaya: "Azərbaycan xalqına böyük səmimiyyətlə və məhəbbətlə yanaşıram"




"Rossiya 24" kanalının aparıcısı Evelina Zakamskaya Azərbaycan barəsində fikirlərini və hisslərini "Moskva-Bakı" portalının müxbiri ilə bölüşüb.

E.Zakamskaya müxbirin "Azərbaycanla sizi nə bağlayır?" sualına belə cavab verib: "Mən Azərbaycanın həyatını izləyirəm, çünki bu ölkə mənim Vətənimdir. Mən Azərbaycan xalqına - onun tarixinə, indisinə və gələcəyinə böyük səmimiyyətlə və məhəbbətlə yanaşıram. Sonuncu dəfə Azərbaycanda 2015-ci ildə olduqca parlaq və yaddaqalan idman tədbiri - Avropa Oyunları zamanı olmuşam.

Mən ölkənin mədəni həyatını da diqqətlə izləyirəm. Bakı Xoreoqrafiya Məktəbinin yetirməsi olan gözəl balerina Anna Antoniçeva Böyük Teatrda prima-balerina statusunda rəqs edir. Bu təhsil ocağında çoxlu gözəl müəllim olub və indi də var. Mən əminəm ki, Azərbaycan teatrın inkişafına bundan sonra da yetərli qüvvə, vəsait və diqqət ayırsa, bu, dünya mədəniyyətinin rifahına xidmət edəcək.

Uşaqlarımın dayəsi azərbaycanlıdır. Biz ikimiz də bir-birimizi heç tanımadan Bakıda böyümüşük. O, artıq 13 ildir bizim ailədədir: böyük qızımı böyüdüb, indi kiçik qızımla məşğuldur. Mənim uşaqlarım bəzi Azərbaycan sözlərini bilir. Mən çox şadam ki, həyat yoldaşımın ailəsi Azərbaycan mədəniyyətinə və ənənələrinə bələd olur.

Növbəti dəfə Bakıya nə vaxt gəlməyə hazırlaşıram? Zənnimcə, bu, işimlə bağlı məsələ olacaq. "Rossiya 24" kanalında populyar "Mneniye" ("Rəy") layihəsini həyata keçirirəm, dövlət başçılarından müsahibə götürürəm. Əgər mövzu olsa, Azərbaycanın Prezidenti, Birinci vitse-prezidenti tərəfindən dəvət olsa, böyük məmnuniyyətlə gələrəm. Doğma Bakı ilə görüş mənim üçün həmişə əziz və əhəmiyyətlidir".

Azərbaycan və Bakı haqqında xeyli mehriban və xoş söz deyən E.Zakamskaya fikrini belə tamamlayıb: "Azərbaycan Prezidenti İlham Əliyevlə çox söhbət etmişəm. Ona, ilk növbədə, ölkə lideri kimi baxmışam. Mənim üçün insani keyfiyyətlər və siyasətçi keyfiyyətləri bir-biri ilə sıx bağlıdır. Mən onda özünə güvənən müdrik siyasi xadim gördüm. Bütün bunlar gözəl yumor hissinə malik intellektual, ağıllı və həssas insanla sıx bağlıdır.

# DSX və Təhsil Nazirliyinin təklifi ilə yeni ixtisas yaradılıb

Nazirlər Kabineti "Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda dəyişiklik edib. SİA-nın məlumatına görə, dəyişikliyə əsasən bakalavriat səviyyəsi üzrə yeni sərhəd təhlükəsizliyi və idarəetmə ixtisası yaradılıb. Nazirlər Kabineti Təhsil Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin təklifini nəzərə alaraq belə bir qərar qəbul edib.



Bununla da "Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda bakalavriat səviyyəsi üzrə ixtisasların sayı 9-a çatıb. İndiyə qədər bakalavriat səviyyəsi üzrə ixtisasların siyahısına silah və silah sistemlərinin istehsal texnologiyası, optotexnika, pirotexniki vasitələrin texnologiyası, çoxkanallı radiorele və troposfer rabitəsinin yerüstü aparatlarının hazırlanması, istismarı və təmiri, kompozisiya materiallarından müdafiə təyinatlı məmulatların layihələndirilməsi və istehsalı, informasiya təhlükəsizliyi, xüsusi təyinatlı texnika və sistemlər və informasiya-təhlil fəaliyyəti ixtisasları daxil olub.

# Şuşa məscidinin bənzəri olan məscid işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır

*Prezident İlham Əliyev: "Şuşa məscidləri, Ağdam məscidləri, işğal altında olan digər şəhərlərimizin məscidləri ermənilər tərəfindən dağıdılıb. Bu cinayət bütün müsəlman aləminə qarşı törədilmiş cinayətdir"*

***Məlum olduğu kimi, iyun ayının 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulmuş Cocuq Mərcanlı kəndinə səfər edib və orada görülmüş işlərlə tanış olub.***

Prezident İlham Əliyev kəndə səfəri çərçivəsində, həmçinin, Onun tapşırığına əsasən tikilmiş Şuşa məscidinin bənzəri olan məsciddə də olub. 50 sot ərazidə inşa edilən məscidin minarələrinin hündürlüyü 26 metrdir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanmasında müstəsna xidmətlər göstərir. Dövlətimizin başçısı islam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq, ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir.







İyunun 13-də müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bildirib ki, Ermənistan Azərbaycanın torpaqlarının bir hissəsini, uzun illərdir ki, işğal altında saxlayır, bütün beynəlxalq normaları kobudcasına pozur, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə biganə qalır, işğal edilmiş torpaqlarda bizim bütün tarixi, dini abidələrimizi məhv edib və bunu təsdiqləyən bir çox sənədlər, videomateriallar vardır: "Erməni işğalı nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Biz bütün beynəlxalq təşkilatlarda münaqişə ilə bağlı həqiqətləri ortaya qoyuruq, dünya ictimaiyyətinə çatdırırıq. Əlbəttə, bunu müsəlman ölkələrinin ictimaiyyətinə də çatdırırıq ki, bu ölkələrdə yaşayan bizim qardaşlarımız ermənilər tərəfindən işğal edilmiş torpaqlarda hansı vəhşiliklərin törədildiyini görsünlər. Bu vəhşilik təkcə Azərbaycana qarşı deyil, bütün müsəlman aləminə qarşı törədilib. Bu yaxınlarda işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində ucaldılmış məscid Şuşa məscidinin memarlığını təkrarlayır. Şuşa məscidləri, Ağdam məscidləri, işğal altında olan digər şəhərlərimizin məscidləri ermənilər tərəfindən dağıdılıb. Bu cinayət bütün müsəlman aləminə qarşı törədilmiş cinayətdir. Biz istəyirik ki, bütün dünya müsəlmanları bunu bilsinlər".



***"Səs" Analitik Qrupu***

# Qarabağın təbii sərvətləri belə talan edilir və ya bilmədiyimiz həqiqətlər...



***Qarabağ problemi uzandıqca iqtisadi cəhətdən böhran yaşayan Ermənistan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın təbii sərvətlərini daha qəddarlıqla istismar edir. Xarici şirkətlərin Qarabağda törəmə filiallarını yaradan Ermənistan hökuməti bu törəmə müəssisələrin rəhbərliyinə erməni millətindən olan rəhbərlər gətirərək, böyük hiyləgərliklə Qarabağa xarici investisiyalar cəlb edirlər. Bunun da nəticəsində Qarabağın təbii sərvətləri qeyri-qanuni yollarla xarici ölkələrdə satışa çıxarılır. Əldə edilən gəlir Ermənistanın inkişafına sərf olunur, bir qismi isə Qarabağda yaşayan ermənilərin maddi vəziyyətlərinin yaxşılaşdırılmasına yönəldilir. AZƏRTAC AMEA Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşı Faiq İsmayılovun bununla bağlı qeydlərini təqdim edir.***

Bu barədə Rusiyanın "Sekret Firma" jurnalının xüsusi müxbiri Viktor Feşenko Qarabağdan hazırladığı xüsusi reportajlarda bizim bilmədiyimiz bir çox gizli məqamlara aydınlıq gətirib. Jurnalın yazdığına görə, Ermənistan Qarabağın təbii sərvətlərini daşımaq üçün 2012-ci ildə Xocalı hava limanı yenidən tikərək böyük həcmli təyyarələrin enməsi üçün istifadəyə yararlı hala gətirdi. Çünki Ermənistanın işğalı altındakı Qarabağ bölgəsi Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Məhz bu səbəbdən Xocalı hava limanına Azərbaycanın icazəsi olmadan xaricdən ağır yük təyyarələri endirilə bilməzdi, çünki bu ərazilərdə mülki aviasiyaya məxsus lisenziya hüququ Azərbaycana məxsusdur.

Jurnalın yazdığına görə, işğal dövrü Qarabağda kənd təsərrüfatı məhsullarının istehsalı 1990-cı illərlə müqayisədə 1,5 dəfə artaraq 50 milyon ABŞ dollarından 120 milyon ABŞ dollarına yüksəlib. Elektrik enerjisi 75 milyon kilovat saatdan 300 milyon kilovat saata çatdırılıb. 2008-ci ildən 2015-ci ilədək Qarabağa qoyulan xarici investisiya beş dəfə artaraq 200 milyon ABŞ dolları olub.

Əldə olunan məlumatlara görə, Qarabağla İran arasında ciddi işgüzar bağlantılar var. İran qondarma Dağlıq Qarabağ respublikasının müstəqilliyini tanımadığına görə, bütün bağlantılar İrəvan vasitəsilə qurulur. Qarabağdan İrana ixrac olunan mallar İrəvanda qablaşdırılır, qeydiyyatdan keçirilir və bundan sonra İrana göndərilir. Lakin ermənilər Qarabağdan İrana satılan bütün malların üzərində "Made in Artsakh" sözləri yazırlar. İranın yük maşınları işğal altındakı Azərbaycan ərazilərinə sərbəst şəkildə daxil olur və burada yükdaşımaları ilə məşğul olurlar.

Qarabağ probleminin həlli uzandıqca Ermənistanı nəzarəti altında bu ərazilərin təbii sərvətləri böyük acgözlüklə planlı şəkildə talan edilməsi daha da sürətlənir və genişlənir. 1993-cü ildə bağlanan Bişkek Protokolundan sonra bu ərazilərdə Ermənistanın təcavüzkar siyasəti daha da gücləndi. Lakin, Ermənistanın ciddi cəhdlərinə baxmayaraq Qarabağda yaşayan sadə ermənilər, Azərbaycan və Ermənistan arasında Qarabağ probleminin həllinin müharibəsiz bitəcəyinə əmin deyillər. Sadə ermənilərin içərisində bir ümidsizlik hökm sürür.

Qarabağda yaradılan kənd təsərrüfatı müəssisələrindən ən böyüyü "Karabakh Gold"dur. Müəssisənin rəhbəri Araik Arturyandır. Müəssisə yarandığı ilk günlərdən çaxır və konyak istehsalına başladı. Sonralar heyvandarlıq və taxılçılıqla da məşğul olmağa başladı. Müəssisənin rəhbərliyi aztəminatlı ailələrə öz fondlarından bəzən təzminatlar da ödəyir. Qarabağda kənd təsərrüfatının inkişafına qoyulan investisiyalar Ermənistanın banklarının pul vahidləri və qiymətli kağızları hesabına ödənilir.

Qarabağın qondarma kənd təsərrüfatı naziri Aram Mxoyanın verdiyi məlumata əsasən, 1990-cı illərdə Qarabağın iqtisadiyyatının inkişaf etdirilməsinə böyük investisiya qoyanlardan biri Vartan Sirmakes olub. İstanbulda dünyaya göz açan V.Sirmakes 17 yaşında İsveçə köçərək orada yaşayıb. 1990-cı illərdə o saat dizayneri Frank Müllerlə Qarabağa gələrək orada "Frank Muller" saat istehsalı müəssisəsi yaradırlar. Qarabağda istehsal olunan məhsullar əsasən Avropa ölkələrində satılırdı. Beləliklə onların illik gəlirləri 330 milyon dollar təşkil edirdi. Əldə etdiyi gəlirlərdən ruhlanan V.Sirmakes Ağdərə rayonunun Madagiz kəndi yaxınlığındakı su hövzəsini icarəyə götürərək qara kürü istehsal etmək üçün nərə balığı yetişdirməyə başladı. O, burada 50 nəfərlik iş yer yaratdı. Hesablamalara görə Madagiz balıq istehsalı müəssisəsi 2021-ci ildə gəlir gətirəcək. Proqnozlara görə hər il bu balıqyetişdirmə müəssisəsi ildə 30 ton qara kürü istehsal edilməlidir ki, bu da hər il 30 milyon ABŞ dolları həcmində gəlir deməkdir.

Bu stansiyanın istehsal etdiyi enerji birbaşa Ermənistana ötürülür.

Separatçı siyasi - kriminal rejim Qarabağda mini su elektrik stansiyalarının tikintisinə xüsusi yer verirlər. Belə ki, son 14 ildə Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan 14 müxtəlif həcmli "Triqe-1", "Triqe-2", "Triqe-3", "Syunik-1", "Syunik-2", "Syunik-3", "Madagiz-1", "Madagiz-2" və s. mini su elektrik stansiyaları inşa edib. Bu stansiyalardan ən böyüyü Tərtər çayı üzərində yerləşən Sərsəng su elektrik stansiyasıdır. Sərsəng su elektrik stansiyası 2010-cu ildə fəaliyyətə başlayıb. Bu stansiyanın tikintisi üçün investisiya Ermənistanın "M-Enerqo" Zəngəzur mis-molibiden kombinatı tərəfindən həyata keçirilir. "M-Enerqo" kombinatının əsas pay sahibi İngiltərənin "Multicontinental" şirkətidir. Qarabağda istehsal edilən elektrik enerjisinin böyük bir hissəsi Ermənistana ötürülür. Hazırda Qarabağda 300 milyon kilovat saat elektrik enerjisi istehsal olunur. Erməni mütəxəssislər iddia edirlər ki, 2018-ci ildə Qarabağda elektrik enerjisinin istehsalı 450 milyon, daha sonralar isə 700 milyon kilovat saata çatdırıla bilər. İstehlak edilən elektrik enerjisinin 80 faizi Əsgəran-Şuşa-Laçın-Gorus sovetlər dönəmində inşa edilmiş yüksəkgərginlikli elektrik xətti ilə Ermənistana ötürülür.

Ermənistan öz büdcə kəsirlərini doldurmaq üçün Qarabağın təbii sərvətlərini talayır. Bu sırada ermənilər üçün qızıl- mis istehsalı xüsusi önəm daşıyır. Qızıl mis istehsalı, eyni zamanda, investorların da daimi maraq dairəsində olur.

Ermənistan "Sərhədsiz həkimlər" təşkilatının rəhbəri Artur Sarkisyan 1997-ci ildə Qarabağda "Blarq" adlı mis-qızıl emalı kombinatı yaratdı. Kombinatı Ermənistanın İnvestisiya fondu maliyyələşdirirdi. İlk illərdə kombinatın illik gəliri 200 milyon ABŞ dolları təşkil etsə də, bu gəlir 2000-ci ildən zəifləməyə başladı. Hazırda kombinatın illik gəliri 1,4 milyon ABŞ dolları təşkil edir.







Qarabağ vətəndaşı Valeri Mejlumyan Kaşen kəndində "Base Metals" adlı filizsaflaşdırma kombinatı təsis etdi. Kombinat hal-hazırda Ermənistanda fəaliyyət göstərən "Valleks Group" şirkəti tərəfindən maliyyələşdirilir. V.Mejlumyan, eyni zamanda, Drambon kənd ərazisində 2000-ci ildə qızıl-mis emalı kombinatı yaratdı. "Base Metals" kombinatının 2010-cu ildən illik gəliri 8 milyon ABŞ dollar təşkil edir.

Qarabağda Seva Xaçaturyan tərəfindən yaradılan "Karabakh Caret" firması qədim əşyaların və toxuculuq məmulatlarının satışı ilə məşğul olur. Məlumdur ki, 1992-ci ildən etibarən Azərbaycanın işğala məruz qalan 23 muzey və 4 şəkil qalereyasında qalan 100 mindən çox eksponatı ermənilər qənimət kimi ələ keçiriblər. Verilən məlumatdan belə çıxır ki, Ermənistan yaratdığı bu qondarma firma vasitəsilə Azərbaycanın milli mədəni dəyərlərini erməni məhsulları kimi xarici ölkələrdə satırlar. Mənbənin verdiyi məlumata görə "Karabakh Caret" firması iki ildə 600 milyon ABŞ dolları satışdan zəhmətsiz mənfəət əldə edibdir.

Xaçaturyan 2013-cü ildə Xocavənd rayonunun Çartar kəndindən, eləcə də Şuşa və Laçın şəhərlərindən əldə etdiyi 300 xalçanın xarici erməni diasporlarının təşkilatçılığı ilə satışından 270 milyon ABŞ dolları gəlir əldə edib. Qarabağ xalçalarının alıcıları əsasən Rusiya, Amerika və Avropa ölkələridir. Azərbaycanın milli mədəni dəyərlərinin xarici ölkələrin qara bazarlarındakı təşkilatçıları, xarici ölkələrdəki erməni diasporları və "Daşnaksütyun" terror təşkilatının rəhbərləridir.

# “The Jerusalem Post”: Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş təcavüzkar dövlətdir

***Ermənistan və İsrail dostluq münasibətlərini inkişaf etdirəcəklər. Ermənistan xarici siyasət idarəsinin başçısı Edvard Nalbandyan və İsrailin regional əməkdaşlıq naziri Tsaxi Xaneqbi bu barədə razılığa gəliblər. Onlar ikitərəfli münasibətləri, təxirəsalınmaz regional və beynəlxalq problemləri də müzakirə ediblər. Bəs nə üçün Ermənistan İsraillə məhz indi münasibətlər qurmaq qərarına gəlib, nə üçün 25 ildən çox müddət ərzində Ermənistan ilə İran arasında çox gözəl, hətta qardaşlıq münasibətləri yaranıb, amma İsrail Dövləti ilə münasibətlər heç də yaxşı vəziyyətdə olmayıb.***




AZƏRTAC xəbər verir ki, bu barədə İsrailin “Cəmiyyət üçün beynəlxalq layihələr” qeyri-hökumət təşkilatının başçısı, beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qut ölkəsinin ən nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetinin 31 iyul nömrəsində dərc olunmuş “Ermənistan-İsrail əlaqələri: mif, yoxsa reallıq” sərlövhəli məqaləsində yazıb.

Məqalə müəllifi qeyd edir ki, tarixi vəziyyət elə gətirib ki, 1991-ci ildə İsrail ilə Azərbaycan arasında diplomatik münasibətlər qurulandan sonra bu ölkələr arasında qarşılıqlı əlaqələr ardıcıl olaraq yaxşılaşıb və artıq strateji xarakter daşıyır. A.Qut yazır: “Hazırda İsraildə istehlak edilən neftin 65 faizi İsrailin yüksək texnoloji məhsullarının əsas alıcısı Azərbaycandan daxil olur. Bu arada Ermənistan hökuməti İran ilə sıx münasibətlər qurub. Ekspertlər Maksim Qauin və Aleksandr Murinson yazırlar ki, İsrail ilə Azərbaycan arasında münasibətlər yüksələn xətt üzrə yaxşılaşıb, eyni zamanda, erməni nəşrlərində və diaspor təşkilatlarında antisemit baxışlar və sərt tənqid daha müntəzəm xarakter alır, İsrailə və yəhudilərə qara yaxılır, onlar təhqir edilir və iblisləşdirilir”.

Ekspertin fikrincə, hamı yaxşı bilir ki, Ermənistan ən monoetnik ölkədir. Burada şovinizm, millətçilik, faşistlərin və antisemitlərin tərifinin göylərə qaldırılması Sarkisyan rejiminin dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilib. Ekspert yazır: “Ermənistan monoetnik ölkəyə çevrilib. Burada irqçiliklə bərabər, millətçilik və şovinizm inkişaf edir. Təəssüf ki, Ermənistanda antisemitizm faktı hamı tərəfindən qəbul edilməyib. Sovet İttifaqı dağılan vaxtdan etibarən Ermənistanda azlıq təşkil edən yəhudilər və yəhudi irsi kəskin şəkildə azalıb. Sovet hakimiyyətinin sonu hər cür məhdudiyyəti aradan qaldırıb. Ermənistanda antisemit hücumların və bəyanatların sayı kəskin artıb. İqtisadi tənəzzülün davam etməsi yəhudiləri bu ölkədən çıxıb getməyə vadar edib. Bundan əlavə, Ermənistanda yəhudilərə qarşı “mədəni zorakılıq” tətbiq olunur: antisemit məzmunlu kitablar nəşr edilir, televiziyada bu ruhda verilişlər yayımlanır, Yerevanda Holokost qurbanlarının memorial lövhəsi dəfələrlə təhqir edilib. Əlbəttə, başqa ölkələrdə də əhalinin bir hissəsinin nadanlığı üzündən belə faktlar baş verir. Ermənistanda isə antisemit baxışlar və fikirlər erməni siyasətçilərinin və Ermənistanın KİV nümayəndələrinin baxışlarının ayrılmaz tərkib hissəsinə çevrilib. Ermənistanda artıq yoxa çıxmaq üzrə olan çox azsaylı yəhudi icması dəfələrlə antisemit hərəkətlərə görə şikayət edib, yəhudi icmasının başçısı isə antisemitizmin hakimiyyət tərəfindən dəstəklənməsi ilə əlaqədar narahatlığını bildirib”.

Antidiffamasiya Liqasının 2014-cü ilin iyununda apardığı rəy sorğusu göstərib ki, Ermənistanda antisemitizmin səviyyəsi (58 faiz) öz miqyasına görə bütün Avropada üçüncü, postsovet məkanında və Şərqi Avropa ölkələri arasında isə ən yüksəkdir. Məqalə müəllifi yazır: “Beləliklə, Ermənistanın 2,2 milyon sakinindən təxminən 1,3 milyonu antisemit əhval-ruhiyyəlidir. Ermənistanda antisemitizmin belə yüksək səviyyədə olmasını yalnız Yaxın Şərqdə İsrailə düşmən olan ərəb ölkələrindəki vəziyyətlə müqayisə etmək olar. Antidiffamasiya Liqası tərəfindən aparılmış rəy sorğusunun nəticələrinə görə, ermənilərin 63 faizi yəhudilərə onların davranışına görə nifrət edir, 45 faizi hesab edir ki, yəhudilər Holokost barədə əvvəlki kimi yenə də hədsiz çox danışır, 38 faizinin fikrincə, dünya müharibələrinin əksəriyyəti üçün yəhudilər məsuliyyət daşıyırlar. Zənnimcə, bu rəqəmlər Ermənistan cəmiyyətində antisemitizmi parlaq əks etdirir”.

A.Qut daha sonra yazır: “Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, 2016-cı ilin aprel hadisələrindən sonra, Ermənistanın müdafiə xəttinin cəbhənin bir neçə yerində yarılması və bəzi strateji yüksəkliklərdə və yaşayış məntəqələrində Azərbaycanın nəzarətinin bərpa olunması ilə nəticələnən sürətli əks-hücum zamanı biz Ermənistanda İsrail əleyhinə isteriya və əsl antisemitizm gördük. Erməni icması İsraildə hətta Azərbaycan-İsrail tərəfdaşlığına qarşı etiraz nümayişi keçirdi. Ermənistanın İsraili tənqid etməsinə gəlincə, Azərbaycan və İsrail öz dostlarını və tərəfdaşlarını özləri seçir və bu ölkələr hərbi-texniki sahədə strateji əməkdaşlığın səviyyəsini özləri müəyyən edirlər. Heç bir üçüncü ölkənin bu prosesə müdaxilə etməyə haqqı yoxdur. Axı Azərbaycan soruşmur ki, nəyə görə Ermənistan ərazisində üçüncü dövlətin hərbi bazaları var və bu üçüncü dövlət tərəfindən Ermənistan Respublikasına necə hərbi yardım göstərilir. Aydın məsələdir ki, Ermənistanın müstəqil müdafiə strategiyası, hərbi tədarük siyasəti yoxdur. Ermənistan Kollektiv Təhlükəsizlik haqqında Müqavilə Təşkilatının üzvüdür və Rusiya ilə hərbi ittifaqın yaradılması barədə ikitərəfli saziş Ermənistanı müstəqil silahlı qüvvələrlə bağlı bütün prinsiplərdən məhrum edir”

Azərbaycanın əsas silah təchizatçılarından biri olan İsrail Ermənistana da silah sata bilər. Bunu Ermənistan xarici işlər nazirinin müavini Şavarş Koçaryan İsrailin regional əməkdaşlıq naziri Tsaxi Xaneqbinin Ermənistana rəsmi səfərindən sonra bəyan edib. A.Qut vurğulayır: “Bununla belə, erməni siyasətçilərinin İsraillə Ermənistanın mümkün hərbi əməkdaşlığı haqqında sözləri siyasi uydurmadan başqa bir şey deyildir. Ermənistana silah ixrac etmək üçün İsrailin bu ölkə ilə strateji münasibətləri olmalıdır. Həqiqətdə isə İsrailin Ermənistanla bu münasibətləri sıfır səviyyəsindədir. Ermənistanın hərbi texnikanın satın alınmasına dair İsrailin hərbi-sənaye şirkətləri ilə ciddi müqavilələr imzalaması üçün maliyyə vəsaiti yoxdur. Ermənistan kommersiya nöqteyi-nəzərindən də heç bir iqtisadi perspektivə malik deyil”.

Ermənistanın Rusiya hərbi texnikasını və texnologiyasını subsidiya və ianə şəklində əldə etdiyini vurğulayan israilli ekspert yazır: “Azərbaycan torpaqlarını işğal etməsi səbəbindən Cənubi Qafqaz regionunda təcrid vəziyyətində olan Ermənistan Xəzər dənizinin qaz və neft resursları ilə bağlı əsas geosiyasi və geoiqtisadi layihələrin hüdudlarından real şəkildə kənarda qalır. Belə bir fakt şəksizdir ki, Ermənistan Cənubi Qafqazda ən asılı və ən yoxsul ölkədir. Sovet İttifaqı dağılandan sonra Ermənistan tamamilə Rusiyaya bağlıdır və onun xarici-siyasi və iqtisadi ambisiyalarından asılıdır. Əhalisi 1,5 milyon olan kiçik ölkə Ermənistan son illər geosiyasi təcrid vəziyyətindədir”.

A.Qutun fikrincə, 1998-ci ildən Ermənistanda hakimiyyətdə olan Respublika Partiyasının faşist və antisemit Qaregin Njdeyə sadiq olduğunu açıq şəkildə bəyan etməsi daha bir ağlasığmaz faktdır. İsrailli analitik yazır: “Vurğulamaq lazımdır ki, faşistlərə pərəstiş hansısa marginal siyasi qruplaşmalar tərəfindən həyata keçirilmir, bu addımların arxasında dövlət, daha doğrusu, müasir Ermənistan Respublikasının kriminal və terrorçu rəhbərliyi dayanır. General Njdenin abidəsinin açılış mərasimində Ermənistan Prezidenti Serj Sarkisyanın və müdafiə naziri Seyran Ohanyanın iştirak etmələri faktı təsdiq edir ki, onlar özlərini erməni faşisti və antisemit Njdenin həqiqi və əsl varisləri hesab edirlər. Tarix və yəhudi xalqı İkinci Dünya müharibəsi illərində vermaxtın tərkibindəki 20 minlik erməni legionunun qəddarlığını heç vaxt unutmayacaq. Arxiv sənədləri ilə təsdiq olunmuş tarixi faktlar var. General Njdenin başçılıq etdiyi erməni legionunun məqsədi yəhudiləri və alman ordusuna yararsız olan digər insanları məhv etmək olub. Njde minlərlə yəhudinin məhvində şəxsən iştirak edib. Simferopol, Yevpatoriya, Aluşta, Kerç və Feodosiya, habelə Qərbi Krımın digər rayonları məhz erməni legionu sayəsində yəhudilərdən tam təmizlənib. Məgər bundan sonra biz erməni faşisti və antisemitinin müasir Ermənistanda milli qəhrəman dərəcəsinə yüksəldilməsinə laqeyd baxa bilərikmi? Bundan sonra ermənilər bizə vicdan, əxlaq və ədalət dərsi keçə bilərlərmi?! Bundan sonra Ermənistanın bəzi “yəhudi” liderləri mənə sübut etməyə çalışacaqlar ki, Ermənistanda antisemitizm, yəhudilərə və israillilərə nifrət yoxdur?”.

İsrail ilə Azərbaycan arasında qarşılıqlı etimada əsaslanan strateji tərəfdaşlığın möhkəmlənməsinin Ermənistanı daim qıcıqlandırdığını vurğulayan A.Qut xəbərdarlıq edərək yazır: “İsrailin Azərbaycanla ikitərəfli münasibətlərinə, o cümlədən müdafiə sahəsində münasibətlərinə ziyan vurmaq və Azərbaycan cəmiyyətində onun müsbət imicini korlamaq üçün Ermənistan bəzi qeyri-rəsmi kanal-

# “The Jerusalem Post”: Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş təcavüzkar dövlətdir

larla İsraildən simvolik miqdarda hərbi texnika almaq fürsəti ələ keçirməyə çalışır. Əslində, Ermənistan müəyyən qədər hücum tüfəngi və ya snayper almaq, təmas xəttində 5-10 əsgəri bu silahla silahlandırmaq və sanki Ermənistan qoşunlarının İsrail silahları ilə silahlandırılması kimi xəyali bir obraz görüntüsü yarada bilər. Bunu sosial şəbəkələr və qondarma kütləvi informasiya vasitələri ilə də yaymağa cəhd göstərə bilərlər. Odur ki, İsrail və Azərbaycan Ermənistan Respublikasının bəd niyyətindən xəbərdar olduqları üçün həmin məsələdə daha diqqətli olmalıdırlar”.

Bundan əlavə, Ermənistan Azərbaycan ərazisinin 20 faizini, o cümlədən Dağlıq Qarabağı və ona bitişik 7 rayonu işğal etmiş təcavüzkar dövlətdir. Ermənistan tərəfindən törədilmiş işğal və etnik təmizləmə nəticəsində bu gün Azərbaycanda bir milyon qaçqın yaşayır. Ən qorxulu və əxlaqa sığışmayan fakt odur ki, Xocalı vəhşiliyinin ideoloqları, təşkilatçıları və günahkarları - Ermənistanın indiki prezidenti Serj Sarkisyan, sabiq müdafiə naziri Seyran Ohanyan, sabiq prezidenti Robert Koçaryan və başqaları bu gün Ermənistanda yüksək vəzifələr tutmaqda davam edirlər.

Ermənistanın bütün cinayətkar hakimiyyətinin Xocalı soyqırımının törədilməsində əli olduğunu söyləyən İsrailli eksperti vurğulayır: “Xocalı soyqırımı bütün bəşəriyyətə qarşı cinayətdir. Bu tarixi faktdır ki, erməni silahlı qüvvələri və muzdlu dəstələri şəhəri və onun ətraflarını tərk etməyə macal tapmayan Xocalı sakinlərinə aman verməyiblər. Erməni silahlı birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfər qətlə yetirilib, 487 nəfər əlil olub, 1275 dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək görünməmiş işgəncələrə, təhqirlərə və həqarətlərə məruz qalıblar. Dinc Xocalı sakinləri yaxın məsafədən güllələnib, başlarının dərisi soyulub, bir çoxu diri-diri yandırılıb. Qocalar, uşaqlar və qadınlar ağlasığmaz və dözülməz işgəncələrə, amansız rəftara və həqarətlərə məruz qalıblar. Xocalı şəhərinin mülki əhalisi yalnız bir məqsədlə düşünülmüş şəkildə kütləvi məhv edilib - onların hamısı azərbaycanlı olub. Bu gün İŞİD-in əsirlərin başına açdıqları oyunların bəzən daha dəhşətlilərini erməni terrorçuları 1992-ci ildə Xocalıda törədiblər. Bu gün bu müharibə vəziyyəti Cənubi Qafqaz regionunda sülhü və təhlükəsizliyə təhdid edir. ABŞ-da və digər aparıcı ölkələrdə erməni lobbisinin intensiv səylərindən ruhlanan Ermənistan BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğalı ilə bağlı dörd qətnaməsinə məhəl qoymur”.

Məqalə müəllifinin fikrincə, Avrasiya ərazisində heç bir ölkənin İsraillə Azərbaycan Respublikası qədər yaxın və mehriban münasibətləri yoxdur. Bu iki ölkə arasında münasibətlər xüsusilə heyrətləndirir, çünki Azərbaycan dünyəvi müsəlman ölkəsidir. “Ancaq bu sıx qarşılıqlı münasibətlər azərbaycanlılar və bu ölkədə yaşayan yəhudilər arasında çoxdankı dostluğa əsaslanır. Bir çox xalqlardan fərqli olaraq azərbaycanlılar yəhudilərə heç vaxt əcnəbi kimi baxmayıblar. Əslən Azərbaycandan olan israillilər Azərbaycan və İsrail arasında iqtisadi və hətta geosiyasi əməkdaşlığın formalaşması və möhkəmlənməsi üçün çox iş görürlər. İsrail Azərbaycana həmişə böyük diqqət və mehribanlıqla yanaşıb. Özü də təkcə ona görə yox ki, bu ölkədə heç vaxt antisemitizm olmayıb. Rəsmi Bakı başqa ölkələrdə antisemitizmin hər hansı təzahürünü dəfələrlə pisləyib və pisləməyə davam edir. İqtisadi əlaqələrin genişlənməsi nəzərə alınarsa, bu, xüsusilə aktualdır: İsrail Azərbaycan neftini alır və Azərbaycanın kənd təsərrüfatına və sənayesinə sərmayə yatırır, Azərbaycan isə ekologiya, telekommunikasiyalar, təbii sərvətlər sahələrində əlaqələrin genişlənməsində maraqlıdır. Bundan əlavə, hər iki tərəf təhsil və mədəniyyət sahələrində layihələri təşviq edir.

Bu gün sirr deyildir ki, İsrailin hərbi-sənaye şirkətləri Azərbaycanın hərbi sənayesinin yaradılmasında və inkişafında fəal iştirak edirlər. Azərbaycan hərbi texnika tədarükü sahəsində İsrailin ciddi tərəfdaşıdır. Açıq mənbələrdən olan informasiyaya görə, İsrail ilə Azərbaycan arasında müdafiə avadanlığının alınmasına dair imzalanmış müqavilələrin məbləği 5 milyard ABŞ dolları təşkil edir. Son üç ildə Azərbaycan İsraildən silah idxal edən çox əhəmiyyətli istiqamətə çevrilib. Hətta Azərbaycanın “Dəmir günbəz” sistemi almaq imkanları axtarması barədə xəbərlər var.

A.Qut qeyd edir ki, Ermənistanın “Armenian Report” saytı açıq şəkildə antisemitizmi və antiisrailizmi təbliğ edir və hətta İsrail dövlətini məhv etməyə çağırır. Baxın görün, onlar nələr yazırlar: “Biz İsrail əleyhinə qəti mövqedə dayanan İran, hərbiləşdirilmiş ərəb qruplaşmaları və təşkilatları ilə daha sıx əməkdaşlıq etməliyik. Bunun üçün Ermənistan hökuməti Yaxın Şərqdə yaşayan, “Hizbullah”, “İslam cihadı”, “Həmas”, xüsusilə də “İzzəddin əl-Qəssam briqadaları” ilə sıx əlaqələri olan erməniləri fəal cəlb etməlidir. Yaxın Şərqdəki diaspor təşkilatlarımız İsraili məhv etməyi vəd edən bu təşkilatları maliyyələşdirməyə başlamalıdırlar”.

A.Qut yazır: “Düşünürəm ki, heç bir şərhə ehtiyac yoxdur. Heç bir zəmanət yoxdur ki, Ermənistan, fərz edək, İsraildən aldığı silahları İrana və “Hizbullah” terrorçu təşkilatına ötürməyəcək. Bu sahədə İran və Ermənistan arasında yaxşı tənzimlənmiş xətt mövcuddur. “Wikileaks”ə görə, Ermənistan Bolqarıstandan xeyli tank əleyhinə raket alıb. Bir neçə ay sonra İraqda Amerika tankları bu raketlərlə məhv edilib. Raketlərin kodunun yoxlanılması zamanı müəyyən edilib ki, onlar Bolqarıstanda istehsal edilib və İraqa Ermənistandan gətirilib. Hətta o dövrdə ABŞ dövlət katibi olan Hillari Klinton Ermənistan Prezidentinə sərt etiraz məktubu yazıb və izahat tələb edib”.

Eyni zamanda, Ermənistan KİV-ləri Ermənistanın SPIKE raketləri alması barədə yalan informasiya yayırlar. A.Qut yazır: “Fərz edək, Ermənistan İsraildən SPIKE raketləri aldı, sonra bu silahları İrana ötürdü və daha sonra bu raketlər Hizbullah terrorçularının əlinə keçdi. “Hizbullah” ilk növbədə psixoloji təzyiq elementi kimi, bu raketlərdən İsrail əsgərlərinə və tanklarına qarşı istifadə edə bilər. Bu riskin ikinci hissəsi hərbi texnikanın ötürülməsi ilə bağlıdır. Ermənistana hər hansı hərbi texnika satışı o deməkdir ki, bu silahın prototipi tezliklə İranın və müdafiə bazarında İsrailin rəqibi olan Rusiyanın əlinə keçə bilər”.

Azərbaycan rəhbərliyinin ölkənin yəhudi icmasının ənənələrinə və həyatına dünyada presedenti olmayan qayğıkeşliklə və mehribanlıqla yanaşdığını əslən Azərbaycandan olan İsrail vətəndaşı kimi fəxrlə qeyd edən A.Qut yazır: “Azərbaycan Prezidentinin himayəsi ilə iki sinaqoq və Cənubi Qafqazda ən böyük yəhudi təhsil mərkəzi inşa edilib. Azərbaycanda birinci yəhudi muzeyi yaradılması planlaşdırılır. Bu, Cənubi Qafqazda ilk yəhudi muzeyi olacaq. Əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycan kimi bir ölkənin İsrail ilə bu cür sıx dialoq, əməkdaşlıq və tərəfdaşlıq qurmağa necə nail olması barədə kiminsə sualı varsa, Azərbaycanın dağlıq bölgəsində yerləşən Quba rayonunda yəhudilərin yaşadığı məşhur Qırmızı Qəsəbəyə baxmaq kifayətdir. Azərbaycanın əsl qürur yeri sayılan Qırmızı Qəsəbə İsraildən sonra bütün dünyada yəhudilərin yığcam şəkildə yaşadığı yeganə unikal yerdir”.

İsrail dövləti Azərbaycanın ədalətli mövqeyini müdafiə edir, ərazi bütövlüyünü fəal şəkildə dəstəkləyir və Ermənistan-Azərbaycan münaqişəsini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etməyə çağırır. Arye Qut məqaləsində yazır: “Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı 25 ildən çoxdur ki, davam edir. Bu təcavüz nəticəsində ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün var. İndiki mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın haqlı mövqeyinin Yaxın Şərqdə İsrail dövləti kimi mühüm strateji tərəfdaş və güclü geosiyasi aktor tərəfindən dəstəklənməsi Azərbaycan Respublikası üçün çox zəruridir.

Prezident İlham Əliyev və Baş nazir Binyamin Netanyahu ölkələrimiz və xalqlarımız arasında münasibətlərin möhkəmlənməsində yeni səhifə açıblar. Azərbaycan tolerantlığın və qarşılıqlı hörmətin çox gözəl və parlaq nümunəsidir. Azərbaycanda yəhudilərə əsrlərboyu hörmətlə yanaşılması bu ölkəyə rəğbət və heyranlıq hissini daha da gücləndirir. Bu gün müasir Azərbaycan-İsrail münasibətləri ümumi dəyərlərə və ümumi tarixə dayanır. Bəşəri əlaqələr və müxtəlif dini-tolerant cəmiyyətlərdə yaşamaq əzmi hər iki ölkəni zənginləşdirir. Bundan əlavə, bu ölkədə yəhudilər və azərbaycanlılar əsrlərboyu doğma qardaşlar kimi yaşayıblar, onlar bir-birinə ortaq tarixi tellər və tale ilə bağlıdırlar. İftixarla deyə bilərəm ki, sivil deyilən bir çox Avropa ölkələrindən və xalqlarından fərqli olaraq, nə azərbaycanlılar yəhudilərə, nə də yəhudilər azərbaycanlılara heç vaxt xəyanət etməyiblər”.

## Vladimir Doroxin: Builki festivalda dünya şöhrətli musiqiçilərin ifasından zövq aldım



Səkkiz ildir ki, Azərbaycandayam. Ötən illər ərzində beş dəfə Qəbələ Beynəlxalq Musiqi Festivalını izləmişəm. İmkan daxilində belə möhtəşəm musiqi festivalını canlı izləməyə çalışıram. AZƏRTAC xəbər verir ki, bu sözləri Qəbələdə jurnalistlərə müsahibəsində Rusiyanın ölkəmizdəki səfiri Vladimir Doroxin deyib. Rusiyalı diplomat IX Qəbələ Beynəlxalq Musiqi Festivalının çox yüksək səviyyədə təşkil edildiyini bildirib: “Hər il burada dünyanın tanınmış musiqiçilərinin ifasını canlı dinləmək imkanım olur. Builki konsertdə dünya şöhrətli musiqiçilərin ifasından zövq aldım. Qəbələ festivalının yüksək səviyyəli bir tədbir olduğunu bilirəm. Tədbirin təşkilatçılarına təşəkkür edirəm. İsti yay günlərində istirahət üçün Qəbələni seçdim. Ona görə ki, gözəl təbiəti, istirahət mərkəzləri, qonaqpərvər insanları olan Qəbələyə gəlməklə, həm də beynəlxalq musiqi festivalına tamaşa edim”.

“Musiqi sərhəd tanımadığı üçün indiyədək Qəbələ festivallarında Rusiyanın bir neçə tanınmış orkestri, solisti, dirijoru çıxış edib. Həmçinin ötən illərdə Qəbələdəki bütün musiqi festivallarında rusiyalı bəstəkarların əsərləri səsləndirilib. Bu da iki ölkə arasındakı mədəni və tarixi bağların dərinliyindən xəbər verir”, - deyə səfir Vladimir Doroxin bildirib.

## “Azəriqaz”: 240 çoxmərtəbəli binaya təbii qaz verilib




“Azəriqaz” İstehsalat Birliyi tərəfindən yanvar-iyul ayları ərzində 240 çoxmərtəbəli binaya təbii qaz verilib. İstehsalat Birliyindən AZƏRTAC-a bildirilib ki, “Azəriqaz” çoxmərtəbəli binalara təbii qazın verilməsi istiqamətində fəaliyyətini davam etdirir. Bu ilin yanvar-iyul ayları ərzində birliyin operativ fəaliyyətinin nəticəsi olaraq, hüquqi və fiziki şəxslərin müraciətləri araşdırılıb və müvafiq sənədləri təqdim etmiş 240 çoxmərtəbəli binanın qazının açılması təmin olunub. Bu isə ümumilikdə, 11 min 266 mənzili əhatə edir. Ümumiyyətlə, İB qazın satışı ilə məşğul olan bir qurum olaraq zəruri sənədləri təqdim etmiş, bütün normativ-texniki və təhlükəsizlik tələblərinə cavab verən istənilən çoxmərtəbəli binaya ən qısa müddətdə qaz açılmasının təmin olunmasında hər zaman maraqlıdır.

# “Özünə qəsd edərək əlillik dərəcəsi almaq üçün dövlət orqanına təzyiq göstərməyin heç bir mənası yoxdur”

***“Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, son illərdə əmək və sosial müdafiə sahələri, o cümlədən əlilliyin qiymətləndirilməsi sahəsi tam elektron infrastruktur üzərində qurularaq şəffaflaşdırılıb. Hazırda əlilliyin təyinatı proseduru elektron sistem vasitəsilə və tam şəffaf şəkildə həyata keçirilir. Ona görə də hansısa şəxsin özünə qəsd edərək şantaj etməklə əlillik dərəcəsi almaq üçün müvafiq dövlət orqanına təzyiq göstərmək cəhdinin heç bir mənası yoxdur”.***



SİA xəbər verir ki, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev vətəndaş Cabbarov Sərxan Sərvər oğlunun əlillik dərəcəsi almaq üçün özünü yandırmaq istəməsi hadisəsinə münasibət bildirərkən vurğulayıb. E.Babayev bildirib ki, Tibbi-Sosial Ekspert Komissiyaları (TSEK) haqqında əsasnaməyə edilmiş dəyişikliklərə əsasən vətəndaşların onlara əlillik dərəcələrinin təyin edilməsi məqsədilə TSEK-lərə müvafiq sənədlərlə müraciət etmələri, TSEK-də müayinə olunmaqla əlilliyin qiymətləndirilməsi proseduru ləğv olunub.

“Bu proses artıq elektron qaydada, yəni Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi (TSERAS) vasitəsilə həyata keçirilir. Belə ki, əlilliyin qiymətləndirilməsi üçün göndərişin (forma 88) rəsmiləşdirilməsi haqqında məlumat Səhiyyə Nazirliyindən elektron qaydada real vaxt rejimində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq elektron sisteminə - TSERAS-a ötürülür. Göndərişi verən səhiyyə müəssisəsinin, onu təsdiq edən şəxslərin, eyni zamanda göndərişin aid olduğu şəxsin (əlillik vəziyyəti qiymətləndirilməli olan vətəndaşın) kimliyini müəyyən etməyə imkan verən bütün məlumatlar elektron sistem tərəfindən adsızlaşdırılmaqla kodlaşdırılır. Bundan sonra həmin göndəriş əlilliyin qiymətləndirilməsi üçün elektron şəkildə onu vermiş səhiyyə müəssisəsinin yerləşdiyi və şəxsin qeydiyyatda olduğu yer üzrə TSEK istisna olunmaqla hər hansı TSEK-ə göndərilir”, - deyə E.Babayev qeyd edib.

Nazirlik rəsmisi qeyd edib ki, göndərişi elektron formada qəbul etmiş TSEK tərəfindən həmin sənəddə qeyd olunan xəstəliyin vəziyyəti barədə məlumatlar əsasında şəxsin əlilliyi qiymətləndirilir və əlillik təyin olunub-olunmamasına dair qərar qəbul edilir. Beləliklə, elektron sistem göndərişin kimə aid olduğu, hətta hansı rayon və şəhərin səhiyyə müəssisəsindən göndərildiyi bilinmədən, tam obyektiv və şəffaf şəkildə əlillik qrupunun təyin olunub-olunmamasına dair qərar qəbul edilməsinə imkan verir. Eyni zamanda, əlillik qrupunun təyin edilib-edilməməsinə dair qərar barədə məlumat, eləcə də əlillik təyin olunmasından imtina verilibsə, bu imtinanın səbəbi də vətəndaşın elektron ünvanına və ya telefonla mesaj vasitəsilə ona çatdırılır: “Ona görə bir daha diqqətə çatdırırıq ki, əlilliyin qiymətləndirilməsi üçün elektron qaydada, insan müdaxiləsi, subyektiv yanaşmalar mümkün olmayan belə bir şəffaf sistem mövcud olduğu halda, özünə xəsarət yetirmək, şantaj vasitəsilə dövlət orqanına təzyiq etmək, guya bununla əlillik dərəcəsi almağa nail olmaq düşüncəsi yanlışdır. Belə cəhdlər qeyri-qanunidir və heç vaxt müsbət nəticələnə də bilməz”.

# Serj Sarkisyanın “çarlığı”: boşalan Ermənistan

*Erməni mətbuatı ölkədə adam qalmadığını yazır*

***Ermənistanda mövcud olan hazırkı ağır sosial-iqtisadi vəziyyət və siyasi böhran, ilk növbədə, bu ölkədə yaşayan insanlara zərbələrini vurmaqda davam edir. Belə ki, sonuncu rəsmi statistik məlumatlara görə, ölkə əhalisinin sayı ötən əsrin 70-ci illərindən bu yana, ilk dəfə olaraq, 3 milyondan azdır. Artıq Ermənistan mətbuatı da bu barədə həyəcan təbili vurmağa başlayıb. Sözügedən məsələ barədə “1in.am” saytında yazan erməni analitik Sarqis Artsruniyə görə, ötən bir ildə Ermənistanı, birdəfəlik olaraq 15 min insan tərk edib. “Bu, rəsmi statistikadır ki, ictimai rəy ona inanmır və hesab edir ki, ölkəni tərk edənlərin sayı ölçüyəgəlməz dərəcədə çoxdur”-deyə Artsruni öz şərhində qeyd edir.***





## “Bu hökumətin başında Ermənistanı Sinqapurla və Toskana ilə müqayisə edən baş nazir dayanır”

Erməni analitiki daha sonra yazır: “Hətta rəsmi statistika da gizlətmir ki, ölkədən mühacirət edənlərin dinamikası, məhz Serj Sarkisyanın “çarlığı” dövrünə təsadüf edir və əhalinin sayı heç 3 milyonu belə tamamlamır. İnsanlar ölkəni eyni templə seçki ilində də tərk edirdilər...”

Beləliklə, müəllif burada erməni ictimaiyyətinin Sarkisyan iqtidarına heç bir ümid bəsləmədiyini ifadə edərək, mühacirətlərin sayının durmadan çoxalacağını bildirmək istəyir. “Fakt ondadır ki, sözdə keçirilən seçkilər, məhz ümidsizliyin və qeyri-dəyişikliklərin fonunda mühacirət mənbəyinə çevrildi”-yazan analitikə görə, insanlar ölkəni tərk etməkdə davam edirlər. SİTAT: “Baxmayaraq ki, ölkədə -"yeni nəfəs"i siimvolizə edən hökumət qurulub və bu hökumətin başında Ermənistanı Sinqapurla və Toskana ilə müqayisə edən baş nazir dayanır ki, o, bütövlükdə, hakimiyyətə yiyələnəcəyi halda, investisiyalardan “yağış” vəd edir”.

## “Bu ölkələrdə, Ermənistandakı boynuyoğunlardan fərqli olaraq, onların övladlarının sağlamlığı və təhsilləri üçün çəkinmədən pullar xərclənir...”

Sarqis Artsruni hesab edir ki, insanlar bu nağıla inanmadılar və ölkədən getməyi daha münbit variant kimi dəyərləndirdilər: “Həmin ölkələrə üz tutdular ki, bu ölkələrdə, Ermənistandakı boynuyoğunlardan fərqli olaraq, onların övladlarının sağlamlığı və təhsilləri üçün çəkinmədən pullar xərclənir...”

Erməni analitki Qarabağ münaqişəsinə də toxunaraq yazır ki, hətta insanlar nə zamansa cəbhədə atəş səslərinin kəsiləcəyinə inansalar belə, erməni hakimiyyət dairələrinin və oliqarxlarının harınlığı ölçüyəgəlməzdir, onlar doymurlar, qane olmurlar. “İnsanlar ona görə qaçırlar ki, rəsmi yalanlardan, saxtakarlıqlardan boğazadək doyublar”-deyə qeyd edən Artsruniyə görə, Serj Sarkisyanın boş-boş vədləri heç nəyə yaramır: “Serj Sarkisyan dörd milyonluq Ermənistanın perspektivlərindən dəm vurduqca, insanlar daha çox əmin olmağa başlayırlar ki, ölkə 2040-cı ilə qədər 2 milyonluq “çulana” (anbara) dönəcək. Ona görə ki, bu hakimiyyət qondarma rəqəmlər düzəltməklə, Sarkisyanın boşalan “çarlığı”nın həqiqətlərini gizlətməyə çalışır”.

Beləliklə, görünən budur ki, belə davam edəcəyi təqdirdə, işğalçı ölkədə qısa zaman kəsimində, ümumiyyətlə, insanların barmaqla sayılacağını proqnozlaşdırmaq mümkündür. Elə erməni analitikinin də dediyi kimi, Sarkisyan “çarlığı” bir ona, bir də özünün komandasından başqa kimsəyə lazım olmayacaq.

***Rövşən NURƏDDİNOĞLU***

# Ermənistan de-fakto müstəqilliyini itirib

Rusiya və Azərbaycan prezidentlərinin Soçi görüşündən sonra Dağlıq Qarabağ münaqişəsinin sülh yoluyla həlli ilə bağlı daha ciddi və ümidverici məlumatlar yayır. Bu istiqamətdə şərhlər, ekspert rəyləri verilir. Bu günlər Rusiya mətbuatında diqqəti cəlb edən xəbərlər dərc olunur. Rusiya KİV-lərinin iddialarına görə, qısa zaman ərzində Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial razılaşma əldə olunacaq. Doğrudanmı belə bir razılaşma gündəmdədir? Söhbət etdiyimiz müsahiblərimiz Rusiya KİV-ləri tərəfindən ortalığa atılan bu iddiaların müəyyən maraqlara xidmət etdiyini və ciddi mənbələrə söykənmədiyini bildirdilər:

***Politoloq Rüstəm Məmmədov:***



- Demək olar ki, Rusiya bilərəkdən bu cür bir məsələni ortaya atır və buna olan reaksiyaları araşdırıb öyrənir. Nəhayət, Azərbaycanın və Ermənistanın reaksiyasının nədən ibarət olacağını müəyyənləşdirməyə çalışır. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial razılaşmanın əldə olunacağı haqda məlumat hələ ki, sözdən başqa bir şey deyil. Ermənistana gəlincə isə, demək olar ki, əslinə qalsa, bu gün Ermənistanın hər hansı mövqeyi yoxdur. Bir sözlə, Ermənistan başını saxlamaqla məşğuldur. Rusiya, artıq Ermənistandan üz çevirib. Yəni Rusiya görüb ki, ermənilərlə ciddi iş aparmaq qeyri-mümkündür. Ona görə də, bu gün Ermənistanın vəziyyəti çıxılmaz və ağır durumdadır.

***Politoloq Elşən Manafov:***



- Rusiyada bu məlumatı yayan KİV-lər, özlərini adətən, Kremlə yaxın informasiya vasitələri kimi təqdim edirlər. Xüsusilə, ayrı-ayrı Rusiya politoloqlarının bu məsələ ilə bağlı açıqlamaları, onu göstərir ki, Rusiya bölgədə vəziyyətin bu səpkidə qalmasında müəyyən mənada narahatdır. Demək olar ki, Ermənistan cəbhədə tez-tez atəşkəs rejimini pozur. Əgər istəsə, Azərbaycan bu gün ərzində, işğal atında olan torpaqlarını hərbi yolla azad edə bilər. Bunu Azərbaycan dövlətinin gücü və imkanları da təsdiq edir. Amma Azərbaycan tərəfi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasını istəyir. Ümumiyyətlə, məhz Rusiya Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün daha geniş imkanlara malikdir. Heç kimdə heç bir şübhə yoxdur ki, Rusiya iqtidarı tərəfindən Sarkisyan hakimiyyətinə ciddi təzyiqlərin olacağı təqdirdə, Dağlıq Qarabağ münaqişəsinin qısa bir zaman kəsiyində Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli mümkündür.

***GÜLYANƏ***

# Əlillərin və müharibə veteranlarının sosial müdafiəsi dövlət siyasətinin prioritet istiqamətidir

***Prezident İlham Əliyevin sosial siyasət strategiyasında aztəminatlı ailələrin, xüsusilə, əlillərin və müharibə veteranlarının sosial müdafiəsi, onların işlə təminatı, mənzil və məişət şəraitinin yaxşılaşdırılması mühüm amil kimi diqqət mərkəzindədir. Elə bunun nəticəsidir ki, Dağlıq Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzillə təminatı proqramı uğurla icra edilir.***

Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası işlərinin davamı kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən il 288 nəfər Qarabağ müharibəsi əlili və şəhid ailəsinin yeni mənzillə təminatı həyata keçirilib. Bu il də nazirliyin sifarişi ilə Şəmkir, Tərtər, Salyan, Astara, Füzuli, Zaqatala, Qazax, İsmayıllı rayonlarında inşa olunmuş yeni fərdi yaşayış evləri, ümumilikdə, 29 ev bu təbəqələrdən olan insanlara təqdim edilib. Ümumilikdə isə, indiyə qədər 5435 nəfər əlil və şəhid ailəsi yeni mənzillərlə təmin edilib.

Mənzillərlə təmin olunan ailələrin 91 faizini, məhz Qarabağ müharibəsi əlilləri və şəhid ailələri, digərlərini İkinci Dünya müharibəsi, Çernobıl AES əlilləri və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlar, gözdən əlillər təşkil edir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü ilə təmin edilən 55,4 mindən çox şəxsin 47 faizi və ya 26 min nəfərə yaxını ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşlar və şəhid ailələridir. Onların böyük əksəriyyəti həmin təqaüdlərlə



yanaşı, əmək pensiyası, qalan hissəsi isə sosial müavinətlərlə təmin edilir.

Azərbaycanda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri pensiya təminatı sahəsində də müəyyən güzəştlərə malikdirlər. Belə ki, Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin övladlarının təhsilinə də xüsusi diqqət və qayğı göstərilir. Azərbaycan Respublikası Prezidentinin 18 mart 2014-cü il tarixli Sərəncamına əsasən, onların ölkənin ali və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan uşaqlarının təhsil müddəti ərzində təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. 2017-ci ilin ilk yarımilində respublika əhalisinin 4,4 faizinə və ya 442800 nəfərə aylıq və birdəfəlik sosial müavinət, 58638 nəfərə isə Azərbaycan Prezidentinin aylıq təqaüdləri təyin olunaraq ödənilib. Bu məqsədlər üçün ödənilən vəsaitin məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,5 milyon manat və ya 4,2 faiz artıb. Bu isə sosial müdafiə sahəsində dövlət qayğısının ildən-ilə artdığını təsdiq edən əsas göstəricilərdən biridir. Müvafiq qanunvericiliyə uyğun olaraq, əlilliyə və sağlamlıq imkanlarının məhdudluğuna, yaşa və ailə başçısını itirməyə görə aylıq sosial müavinət təyin olunaraq ödənilir. Həmçinin, müharibə veteranları, müharibə əlilləri və şəhid ailələrinin, I və II qrup Çernobıl AES əlillərinin, müddətli hərbi xidmət qulluqçularının, beşdən çox uşağı olan qadınların uşaqları və başqaları aylıq sosial müavinətlə təmin edilirlər. Uşağın doğulmasına görə ailələrə, radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş, tibbi və sosial yardıma ehtiyacı olan insanlara isə birdəfəlik sosial müavinətlər verilir.

Bu il Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ilə təmin olunan şəxslərin sayı 58 638 nəfər təşkil edib. Həmin təqaüdləri alan vətəndaşların sırasına Azərbaycan Respublikasının Milli Qəhrəmanları və ya onların ailə üzvləri, şəhid ailələri, müharibə əlilləri və onlara bərabər tutulanlar, 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçıları, 20 Yanvar əlilləri, ümumi səbəblərdən I qrup əlillər, Azərbaycan Respublikasının fəxri adlarını alanlar və başqaları daxildir. Bundan başqa, Azərbaycanda əlil və müharibə veteranlarının müalicəsinin təşkili istiqamətində də mühüm tədbirlər görülür. ƏƏSMN-in müvafiq müəssisələrində bərpa müalicəsi, eləcə də, ölkə xaricində ixtisaslaşmış bərpa müalicəsi alanların, yaz-yay mövsümündə sağlamlıq istirahət mərkəzlərinə göndərilənlərin də bir hissəsi, məhz Qarabağ müharibəsi əlilləridir.

Göründüyü kimi, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin problemlərinin həlli daim diqqət mərkəzindədir. Çünki cəmiyyətimizin sözügedən kateqoriyadan olan təbəqəsinin sosial müdafiəsi dövlət siyasətinin prioritet istiqamətidir.

***"Səs" Analitik Qrupu***

# "Zaman və məkan" adlı müsabiqə keçiriləcək




Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "Zaman və məkan" adlı qısametrajlı sənədli filmlər üçün ssenari müsabiqəsi elan edib. İttifaqın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yaşı 35-ə qədər olan bütün şəxslər ssenari müsabiqəsində iştirak edə bilərlər..

Şərtlərə görə hər bir müəllif 3 ssenaridən artıq təqdim edə bilməz. Birinci yerin sahibinə 1500, ikinciyə 1000, üçüncüyə isə 500 manat məbləğində pul mükafatı veriləcək. Ssenari müsabiqəsinin keçirilməsində məqsəd kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirməkdir. Ssenarilər oktyabrın 31-nə qədər təqdim edilməlidir

# Abşeron çimərliklərində dəniz suyunun hərarəti 28 dərəcə olacaq



Ölkə ərazisində avqustun 3-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin axşam yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun Abşeron yarımadasında gecə 23-26°, gündüz 32-37° isti, Bakıda gecə 24-26°, gündüz 34-36° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 25-26°, Zuğulba, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin yağmursuz keçəcəyi ehtimalı var. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-40° isti, dağlarda gecə 15-20°, gündüz 27-32° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 27-32° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 33-38° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 32-37° isti, dağlarda gecə 13-18°, gündüz 23-28° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26° isti, gündüz 35-40° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-25°, gündüz 32-37° isti, dağlarda gecə 15-20°, gündüz 27-32° isti olacağı gözlənilir.

# Qubada meşədə itən azyaşlı qız tapılıb



İyulun 26-da Quba rayonunun Qəçrəş kəndi ərazisində azyaşlı qızın itkin düşməsi barədə Daxili İşlər Nazirliyinin (DİN) "102 Zəng Mərkəzi"nə müraciət daxil olub. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumat aidiyyəti üzrə Quba Rayon Polis Şöbəsinə ötürülüb. Rayon Polis Şöbəsinin rəhbərliyinin göstərişi ilə yaradılan əməliyyat qrupu dərhal hadisə yerinə yollanıb. Araşdırmalarla müəyyən edilib ki, 9 yaşlı Günel babası ilə birlikdə daxili turizm xətti ilə paytaxtdan Qəçrəşə gəzməyə gəlib. Baba nəvəsinin istirahətdə olarkən gördüyü mənzərədən çox xoşlandığını və meşədə gəzərkən azdığını bildirib. Təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri ilə polis əməkdaşları tərəfindən Günel 30 dəqiqədən də az müddətdə sağ-salamat tapılaraq ailə üzvlərinə təhvil verilib.

# Fövqəladə Hallar Nazirliyi çimərliklərdə təhlükəsizliklə bağlı əhaliyə müraciət edib




Fövqəladə Hallar Nazirliyi (FHN) çimərliklərdə təhlükəsizlik qaydaları ilə əlaqədar əhaliyə müraciət edib. FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə çimərlikdə hər kəsin bilməli olduğu təhlükəsizlik qaydaları əksini tapıb.

Qeyd olunub ki, nəzərdə tutulmamış ərazilərdə çimmək, çimmə zonasının işarələnmiş sərhədlərindən kənara üzmək, küləkli havada dənizə girmək, çimərlikdə gecələmək, sərxoş halda çimərlikdə olmaq, suda kobud hərəkətlər etmək, çimərlikdə balıq tutmaq, xilasetmə texnikasından başqa digər qayıq və kiçik gəmilərlə çimərliyə daxil olmaq qadağandır. Həmçinin əhaliyə çimərlikdə uşaqları nəzarətsiz qoymamaq, xəbərdaredici nişan və lövhələrin göstərişlərinə, xilasedicilərin çağırış və tələblərinə sözsüz əməl etmək tövsiyə olunur. Vətəndaşların diqqətinə çatdırılır ki, qızmar günəş altında fasiləsiz dayanmaq, hava qaraldıqdan sonra suya daxil olmaq təhlükəlidir. Çimərliklərdə istirahət saat 9.00-dan 20.00-dək daha təhlükəsizdir. "Unutmayın ki, qaydalara biganəlik həyatımıza təhlükədir. Təhlükə zamanı 112-yə zəng edin", - deyə müraciətdə bildirilir.

# Türkiyənin S-400 cavabı: qlobal geosiyasətdə yeni məqamlar

**_Ankaranın Rusiyadan hava hücumundan müdafiə sistemlərinin alınması haqqında bəyanatından sonra bir sıra dairələrdə narahatlıq artıb. Konkret olaraq, ABŞ və onun avropalı müttəfiqləri etiraz xarakterli fikirlər söyləyiblər. Onlar hesab edirlər ki, Türkiyə bu addımı ilə NATO-nun müdafiə imkanlarını məhdudlaşdırır. Lakin bu zaman nədənsə eyni sistemləri Yunanıstanın, Bolqarıstanın və Macarıstanın almasına göz yumurlar. Ekspertlər hesab edirlər ki, burada daha ciddi geosiyasi faktorlar rol oynayır. Söhbət Türkiyənin böyük dövlət kimi dünya miqyasında daha geniş mövqe tutmasından gedir. Ankara regionun böyük dövləti olaraq daha əhəmiyyətli geosiyasi statusa can atır. Bu kontekstdə onun atdığı hər bir addıma Qərb reaksiya verir. Lakin hər nə olursa-olsun, Türkiyə təhlükəsizliyinin təmini qayğısına özünün lazım bildiyi formada və çərçivədə qalacaq və qalmalıdır. Bütün bunların fonunda Yaxın Şərqdə gərgin geosiyasi mübarizənin getdiyini demək mümkündür. Məsələnin bu tərəfinin təhlili əhəmiyyət kəsb edir._**



## Vaşinqtonun narahatlığı: Ankara yeni silah alır

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya ilə S-400 "Triumf" tipli zenit-raket sisteminin alınması ilə bağlı müqavilənin imzalandığını bəyan etdikdən sonra NATO cəbhəsindən narazılıq və narahatlıq bildirən fikirlər səslənməyə başladı. Daha çox Vaşinqton etiraz xarakterli bəyanat verməkdədir. ABŞ bu sistemlərin NATO-ya uyğun olmadığını, əlavə olaraq, həmin silahların hansı bölgədə və nə məqsədlə yerləşdiriləcəyinin də aydın olmadığını ifadə edir. Bunları ümumiləşdirərək Vaşinqton S-400-lərin Türkiyə tərəfindən alınmasının müsbət hadisə olmadığına diqqət çəkir.

Ankaranın isə öz arqumentləri var. Türkiyə rəhbərliyi təhlükəsizliyin təminində NATO-nun ölkəni yalnız buraxdığını vurğulayır. Xüsusilə, terrorla mübarizədə hərbi bloka üzv olan bir sıra dövlətlər nəinki Ankaraya yardım etmir, hətta ona zərər verən radikal qruplara geniş miqyasda yardım da edirlər. Məsələn, ABŞ PKK-nın Suriya qolu olan PYD-yə ağır silahlar da daxil olmaqla müasir silahlar verib. Onların bir qismi artıq PKK-nın əlindədir. Hətta son zamanlar PKK-lı döyüşçülərə xüsusi geyimlər verirlər ki, terminal müşahidədən yayına bilsinlər. Onların əlindəki silahlar da Amerika istehsalıdır.

Bundan başqa, Almaniya PKK və FETÖ-yə hərtərəfli dəstək verir. Buraya maliyyə, silah və terror qruplarının kadrlarını öyrətmə və qoruma kimi funksiyalar daxildir. Hazırda bu proses o dərəcədə geniş vüsət alıb ki, Türkiyənin dövlətçiliyinə ciddi təhlükə meydana gəlib.

Yaxın keçmişdə "The Independent" nəşri britaniyalı əsgərin PYD sıralarında döyüşdüyünü təsdiq edən materiallar dərc edib. Bu kimi nümunələrin çox olduğu barədə rəsmi informasiyalar mövcuddur. Qərb xüsusi xidmət orqanlarının terrorçulara təlim keçərək onları müsəlman ölkələrinə, o cümlədən Türkiyəyə qarşı hazırladığını sübut edən dəlillər kifayət qədərdir. Bunlara İsrail, Fransa, ABŞ, Almaniya və digər dövlətlərin gizli servisləri daxildir. Təbii ki, başqa ölkələr də antitürkiyə fəaliyyətlərini davam etdirirlər. Rəcəb Tayyib Ərdoğan FETÖ ilə mübarizə gününə həsr edilmiş tədbirdə açıq bəyan etdi ki, əgər Türkiyəni parçalamaq üçün pusquda durmuş ölkələrin adını açıqlasa, ciddi beynəlxalq böhran yarana bilər.

Deyilənlərin fonunda Ankaranın S-400 sistemini alması bunun yalnız silah məsələsi olmadığını təsdiq edir. Söhbət ciddi geosiyasi kursa düzəliş edilməsindən gedir. Konkret olaraq, Türkiyə bütün Qərb tərəfdaşlarına geosiyasi mesaj verir. Bunun mənası Ankaranın artıq qlobal geosiyasətin mərkəzinin Asiyaya "dəyişdiyini" qəbul etməsindən ibarətdir.

Yeni Türkiyə birqütblü dünya modelini qəbul etmir. İndi qlobal lider olaraq yalnız Amerikanın tanındığı zaman artıq arxada qalıb. Bu gün meydanda Çin, Rusiya, Hindistan, Türkiyə və b. kimi güclü oyunçular var. Sadalanan ölkələrin hər biri dünya səviyyəsində söz sahibi olmaq üçün gərgin mübarizə aparır. Türkiyənin bu statusda olduğunu hətta Qərbin bir sıra aparıcı analitikləri və "beyin mərkəzləri" (məsələn, C.Fridman, Z.Bjezinski, H.Kissincer, "Stratfor" korporasiyası və sair) belə qəbul edirlər. Təbii ki, yeni şərtlər daxilində Ankara əvvəlki dövrlərdən fərqli siyasət yeridəcək. O cümlədən o, kimdənsə razılıq almadan necə və hansı silahlar əldə edəcəyinə özü qərar verəcək.

Bu kontekstdə bir məqamı vurğulamaq gərəkdir. Məsələ ondan ibarətdir ki, Rusiyanın istehsal etdiyi "S" tipli raketdənmüdafiə sistemini bir neçə ildir ki, Yunanıstan, Bolqarıstan və Macarıstan da tətbiq edir. Onlar da NATO-nun üzvüdürlər. Ancaq həmin ölkələri hərbi blok üzvləri içərisində qınayan yoxdur. Onların bu cür sistemlərə sahib olmasını müxtəlif arqumentlərlə əsaslandırmağa çalışırlar. Həm də Vaşinqton o silahların NATO-ya uyuşmadığını demir. Bəs məsələ nədən ibarətdir?

## Geosiyasi mübarizə: daha gərgin səviyyədə

Məsələ Türkiyənin böyük geosiyasi oyunçu olması və ciddi hərbi potensiala sahiblənməsindən ibarətdir. Türkiyə Yaxın Şərqin ən güclü dövlətləri sırasındadır. Onun imkanları dünyanın əsas söz sahiblərindən biri olması üçün yetərlidir. Bundan başqa, Türkiyə NATO-nun cənub cinahının əsas dayaq nöqtəsidir. Bu nöqtəni əldən verməklə bütövlükdə Avropa müdafiəsiz qalır.

Belə olan halda yeni sual meydana çıxır - nəyə görə NATO bu dərəcədə əhəmiyyətli üzvünü lazımi səviyyədə müdafiə etmir? Onun da səbəbi aydındır. Birincisi, Türkiyə müsəlman ölkəsidir. İkincisi, Türkiyə Avropanın ən böyük dövlətlərinə belə rəqibdir. Biz İsrail faktorunu hələ demirik.

Bunlar o anlama gəlmir ki, elə bu gün Rusiya, yaxud Çin və ya Hindistan Türkiyə ilə səmimi strateji müttəfiq ola bilərlər. Təbii ki, elə deyil. Lakin sadalanan həmin ölkələr də ABŞ və Qərbin dünya ağası kimi davranmasına razı deyillər. Ankara ilə onları birləşdirən xətt bundan ibarətdir. Onda nəzəri olaraq bir variant seçmək məsələsi qalır ki, bu da müstəqil, dövlətin milli maraqlarına xidmət edən addımlar atmaqdır. Moskva, Pekin, Dehli kimi, Ankara da məhz bu xətti seçib!

Belə çıxır ki, S-400-ləri almaq birbaşa nə Rusiya, nə də Amerika faktoru ilə bağlıdır. Türkiyə öz dövlət maraqlarını və təhlükəsizliyini əsas tutaraq bu bahalı sistemi almağa qərar verib. Onun harada yerləşdirilməsi də önəmli məsələdir. Bunu Vaşinqtonun narahatlığı təsdiqləyir. Türkiyə Suriya, İraq, İran, İsrail istiqamətlərini "çətir" altına ala bilər. Əgər Balkanlar və bütövlükdə Avropa bu "çətir" altına düşsə, onda meydana başqa suallar çıxacaq. Onu da deyək ki, Türkiyə özü bu sistemləri istehsal etmək qərarına gəlib. O halda söhbət ölkənin bütövlükdə hansı hava hücumundan müdafiə sisteminə sahib olacağından gedir. Türkiyə hərbi dairələri strateji hədəfin özlərinin sistemini hazırlamaqdan ibarət olduğunu bildiriblər. Ankara ölkənin hava sahəsini amerikalılara olduğu kimi, ruslara da etibar etməz.

Bütün bunlardan maraqlı geosiyasi nəticələr əldə etmək olar. Təcrübə göstərir ki, qlobal miqyasda oyun qaydaları sürətlə yenilənir. İndi ABŞ KİV-i də yazır ki, dünyanı Vaşinqton təkbaşına idarə edə bilmir. Yaxud artıq buna gücü çatmır. Belə bir vəziyyət potensialı yüksək olan dövlətləri özünəməxsus addımlar atmağa sövq edir. Türkiyə S-400 kimi müasir müdafiə sistemlərini almaqla regionda yeni geosiyasi-hərbi mənzərənin formalaşmasına təkan verir. Əslində, amerikalılar Səudiyyə Ərəbistanına külli miqdarda silah satmaqla, İsrail öz hərbi arsenalını daha da inkişaf etdirməklə və İran yeni silah növlərini sınaqdan keçirməklə bu prosesi çoxdan alovlandırıblar. Sadəcə, Ankara da öz sözünü demək məcburiyyətində qalıb. Söz yox ki, proseslərin bu cür inkişafı Yaxın və Orta Şərqdə böyük dövlətlərin mübarizəsini daha da kəskinləşdirə bilər. Getdikcə daha çox güclü dövlət hərbi qüvvələrini oraya yönəldə bilər ki, bu da Yaxın Şərqdə yeni müharibə təhlükəsini yaradar.

Sonra, Türkiyənin atdığı bu addım ümumən qlobal geosiyasi mənzərədə yeni proseslərə təkan verə bilər. Məsələn, Ankara Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) daxil olmaq üçün təşəbbüs göstərər. Əlavə olaraq onun Çin və Hindistanla əməkdaşlığı daha da genişlənər. Mümkündür ki, Türkiyə Rusiya ilə strateji xarakterli yeni müqavilə, o cümlədən hərbi sferaya aid müqavilə imzalasın.

Başqa bir tendensiya Türkiyənin Cənubi Qafqaz və Mərkəzi Asiya istiqamətlərində daha fəal mövqe tutmasında öz əksini tapa bilər. Çünki Türkiyə geosiyasi təsir dairəsini genişləndirməsə, atdığı hərbi addımlar yarımçıq olacaq. Həm də Ankara iqtisadi, enerji, nəqliyyat, təhlükəsizlik sferalarında daha ardıcıl və aktiv mövqe tutmalıdır ki, qlobal miqyasda söz sahibi ola bilsin.

Bütün bunlara çox güman ki, müəyyən dairələr əngəl törətməyə çalışacaq. Ümid edirik ki, Türkiyə dostları ilə birgə onları aşacaq. Çünki Ankaranın məqsədi hakim olmaq deyil, dünya siyasətinə ədalət gətirməkdir. Allah haqq yolçularını həmişə qoruyur!

**_Newtimes.az_**

# Ermənipərəst Zahava Qalyon nə istəyir?

*"Haaretz" qəzetinin erməni lobbisinin sifarişini yerinə yetirməsi Azərbaycan-İsrail münasibətlərini pozmağa xidmət edir*

**Azərbaycanın dünya siyasətində yerinin və rolunun artması bəzi qüvvələri ciddi narahat edir. Həmin qüvvələr hər vəchlə dövlətimizin müstəqil siyasət aparmasına və aparıcı dövlətlərlə bir sırada dayanıb, dövlət maraqlarını diktə etməsinə əngəl olmağa çalışırlar. Bunun üçün daxildə "sapı özümüzdən olan baltalar"dan istifadə edir və ya ayrı-ayrı ölkələrdə dövlətimiz haqqında mənfi rəy yaratmağa çalışırlar.**




Bu günlər İsraildə nəşr olunan "Haaretz" qəzetində hədyan, şər və böhtan dolu məqalənin çap olunmasını da xaricdən ölkəmizə qərəzli münasibətin tərkib hissəsi hesab etmək olar. Araşdırmalar zamanı məlum olur ki, "Haaretz" qəzetində çap olunan məqalə birinci hal deyil. Dəfələrlə qəzet səhifəsində Azərbaycan dövləti və xalqı haqqında ittihamlar, tənqid və təhqirlər yazılıb. Bu cür məqalələrin işıq üzü görməsində erməni lobbisinin xüsusi rolu üzə çıxır. Yəni bu məsələdə də erməni barmağı mövcuddur. Azərbaycan Milli Məclisinin üzvü, Azərbaycan-İsrail Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupunun sədri Yevda Abramov qəzetdə çap olunan məqalənin arxasında erməni lobbisinin dayandığını bildirib: ""Haaretz" əvvəlki kimi yenə də bir balaca şuluqluq edib. Bu "Haaretz"in adətidir. Qəzetin bu yazıları yazan müxbiri erməni lobbisinin təsiri altındadır. Onlara da parlamentdə - Knessetdə dəstək verən "Merets" Partiyasının sədridir".

Doğrudan da, İsrail-Azərbaycan əlaqələrinin inkişaf etdiyi bir məqamda belə bir məqalənin üzə çıxması təsadüfi sayıla bilməz. Ən maraqlısı isə məqalənin işıq üzü görməsindən sonra Knessetdəki "Merets" partiyasının sədri Zahava Qalyon ermənilərin maraq və mənafeyinə xidmət edən açıqlamalarla çıxış edib. Bir qədər əvvəl də solçu sosial-demokrat partiya olan "Merets"in lideri Z.Qalyon Knessetdəki çıxışı zamanı İsrail hakimiyyətinin Azərbaycanla isti münasibətlər qurmasından və Azərbaycana müasir silahlar satmasından narahatçılıq keçirməsini dilə gətirmişdi. Bildirmişdi ki, İsrail-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, "İsrail Beytenu" ("Evimiz İsraildir") Partiyasının lideri iki dəfə İsrail xarici işlər naziri olmuş Aviqdor Libermanı Bakıya satılmaqda, azərbaycanlıların maraqlarına kor-koranə qulluq etməkdə günahlandırmışdı.

Bu üzdəniraq erməni lobbisinin üzvü olan qadın siyasətçi bütün həyatını və fəaliyyətini ölkəmizə qarşı qərəzli münasibətlər sərgiləməklə qurmağa çalışır. Bu yolda dövlətlərarası maraqlar da arxa plana keçir. Çünki erməni lobbisinin maddi və mənəvi dəstəyi ona bunu diktə edir. Söz yox ki, məqaləni qələmə alan "Haaretz" qəzetinin müxbiri yazıq və bədbəxt insandır. Onun işi erməni lobbisinə bağlı olan Z.Qalyonun göstərişini yerinə yetirməkdir.

Z.Qalyonun və onun kimi dayaz düşüncəli siyasətçilərin Azərbaycana qarşı dar çərçivədən baxmaları, onu deməyə əsas verir ki, onları xalqların üzləşdikləri fəlakətlər, soyqırım və qətliamlar maraqlandırmır. Əgər belə olmasaydı, sözügedən xanım siyasətçi Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində ev-eşiyindən didərgin düşən 1,5 milyon qaçqın və məcburi köçkünün taleyinə, az da olsa acıyardı, eləcə də, 20 faiz torpaqların işğal edilərək, viran edilməsinə göz yummazdı. Həm də nəzərə almaq lazımdır ki, İsrail xalqı da Azərbaycan xalqının yaşadığı ağrı və faciəni yaşayıb. 6 milyon yəhudi Hitlerin siyasətinin qurbanı olub. Yəhudilərin soyqırımı və qətliamdan xilasını azərbaycanlıların da yer aldığı SSRİ Silahlı Qüvvələri həyata keçirib. 27 yanvar 1945-ci ildə SSRİ ordu generalı Pavel Kurotçkinin tabeliyində olan 60-cı Ukrayna birlikləri Osvensim şəhərinə daxil olaraq, sağ qalan yəhudiləri xilas etdi. Məhz həmin gün hər il yanvarın 27-si Holokost Qurbanlarının Beynəlxalq Anım Günü kimi qeyd olunur. Tarixçi-alim Ralf Corc Reutun irəli sürdüyü iddialara görə, Hitlerin yəhudilərə olan qəzəb və nifrətinin əsas səbəbi onun anasının yəhudi həkim tərəfindən öldürülməsi olub. Tarixçi-alim o dövrdə Almaniya iqtisadiyyatını yəhudi iş adamlarının idarə etdiyini, digər tərəfdən ölkə banklarının 50, qəzetlərin isə 80 faizinin yəhudilərin əlində olduğunu qeyd edir. Almanların bir parça çörəyə möhtac qalması Hitlerin narahatçılıq keçirməsinə gətirib çıxarıb.

## Tarix nə deyir?

Araşdırmaçılar və tarixçilər 1941-1945-ci illər ərzində heç də 6 milyon yəhudinin qətlə yetirilmədiyini iddia edirlər. Fransız araşdırmaçı Roger Graody "İsrail dövlətini quran əfsanələr" kitabında yazır ki, nasistlər heç də yazıldığı və deyildiyi kimi, kütləvi şəkildə yəhudilərə qarşı cinayət törətməyiblər: "Bu mövzudakı iddiaların çoxu həqiqətə sığmayan yalan məlumatlardır. Bu faktları o zaman nasist ölüm düşərgələrində həbsdə olmuş yəhudilərin yazdıqları məktublar da təsdiq edir".

Fələstin Muxtariyyətinin rəhbəri Mahmud Abbas da yəhudilərin kütləvi qətliama məruz qalmadıqlarını qeyd edir. O, doktorluq dissertasiyasında bildirir ki, Hitlerin qaz kameralarında yəhudilərin məhv edilməsi barədə qərarı şübhəli məsələdir, həmçinin, sionistlərin nasistlərlə əməkdaşlığı da tarixin qaranlıq səhifələrindəndir.

Əgər həqiqətən də, yazılanlara və deyilənlərə əsaslanaraq, Hitlerin yəhudilərə kin-küdurətinin olduğu qeyd edilsə, o halda, müəyyən suallar ortaya çıxır. Niyə Hitlerin şəxsi mühafizəsinin müəyyən hissəsi yəhudi əsgərlərindən ibarət olub? Ön cəbhədə döyüşən ordu birləşmələrinin əsas zərbə qüvvəsi də yəhudilərdən ibarət idi. Bu barədə ABŞ tədqiqatçısı, tarixçi Bryan Mark Rigg qələmə aldığı əsərində geniş və açıq şəkildə fikirlərini qeyd edib. Tədqiqatçı faktlara istinadən bildirib ki, 150.000 yəhudi əsgər Vermaxtın tərkibində xidmət edib: "Yəhudilərin Hitlerin qəzəbinə tuş gəlməsi inandırıcı deyil və tam şəkildə faktlara söykənmir. Vermaxtın tərkibində döyüşən yəhudi əsgərlər sona qədər Adolf Hitlerə sadiq oldular".

İsrail tədqiqatçıları 6 milyon yəhudinin Hitlerin qəzəbinə tuş gələrək məhv edildiyini iddia edirlər. Amma müstəqil araşdırmaçılar və tarixçilər bu rəqəmin də şişirdildiyini faktlarla sübuta yetirirlər. Tarixçi Peter Wiener "Hitlerin mənəvi atası Martin Lüter" kitabında yazır ki, 1941-1945-ci illər müharibəsi zamanı cəmi 1 milyon insan qətlə yetirilib.

Tarixçi alimlərin və tədqiqatçıların araşdırmalarından və gəldikləri qənaətdən sonra həm də o fikri vurğulamaq lazımdır ki, İkinci Dünya müharibəsinə qədər nasistlərin yəhudilərə qarşı münasibətləri heç də pis olmayıb. Hətta birmənalı şəkildə, demək olar ki, nasistlərin fələstinlilərlə müqayisədə yəhudilərə münasibətləri yaxşı olub. Nasistlər indiki İsrail və Fələstin ərazilərində yəhudilərin yerləşdirilməsinə daha çox maraq göstərib və bu istiqamətdə geniş iş aparıblar. Yalnız 1933-cü ildən 1937-ci ilə kimi Fələstin ərazisinə 141 min yəhudi köçürülüb. 1938-39-cu illərdə də nasistlər yəhudilərin Fələstin ərazilərində məskunlaşmalarına yardımçı olublar. Ümumilikdə, bu siyasət nəticəsində, 1 milyona yaxın yəhudi Fələstin torpaqlarına köçürülərək böyük imtiyazlar əldə etməklə, yaşamaq imkanı qazanıblar. Faktlara əsasən, qeyd olunur ki, bu məsələdə başda Adolf Hitler olmaqla, Reinchard Heydirch və Adolf Eichmann xüsusi fəallıq göstəriblər. Bu baxımdan, demək olar ki, əslində, Hitler yəhudilərin maraqlarından çıxış edib. Hansı ki, bunun qarşılığında nasistlərə qarşı başqa iddialar və ittihamlar irəli sürülür.

Bir sözlə, tarixi faktlara istinad etməklə, subyektiv mülahizələr yürütmək olar. Amma bunun dərinliyinə gedib "Haaretz" qəzetində yer alan məqaləyə uyğun İsrail dövləti və ya bu dövlətin başında duran şəxslər haqqında iddialar irəli sürmək fikrindən uzağıq. Baxmayaraq ki, bununla bağlı, əlimizdə kifayət qədər faktlar var. Təkcə bir faktı qeyd etmək lazımdır ki, Azərbaycan Silahlı Qüvvələrinin uğurlu aprel zəfərindən sonra israilli nazir tələm-tələsik Ermənistana səfər etdi. Səfərlə bağlı müxtəlif məlumatlar yayılsa da, birmənalı sual yaranır: nə baş verdi ki, israilli nazir Yerevana səfər etmək məcburiyyətində qaldı? Fələstində müsəlmanların kütləvi şəkildə zorakılığa məruz qalmaları, qətliamlarla üzləşmələri barədə də yeni faktlar açıqlamaq niyyətində deyilik. Sadəcə, onu vurğulamaq istərdik ki, öz gözündə tiri görməyib, başqasının gözündə tük axtarmaq abırsızlıq əlamətidir.

**İ.ƏLİYEV**

## Ermənistan növbəti fors-major ərəfəsində

*Petros Makeyan: "Rüsvayçı seçki kodeksi əsasında mövcud parlament formalaşdırıldı, hansı ki, orada hər kəs sorğusuz-sualsız Serj Sarkisyana nökərçilik edir"*

**Ötən ilin iyulunda Ermənistanda "Sasna Srer" qruplaşması tərəfindən Serj Sarkisyan hakimiyyətinə qarşı baş qaldırmış və bir neçə gün davam edən silahlı qiyamın ardınca hazırda həbs olunmuş qruplaşma üzvlərinin məhkəmə prosesləri də sakit keçmir. "Sasna Srer" üzvləri xalqı yeni silahlı qiyama çağırır, Sarkisyan rejimi ilə amansız mübarizəyə dəvət edirlər.**



Bu kimi çağırışlarla bağlı Ermənistanın "Birinci İnformasiya" ("1in.am") saytına müsahibə verən "Demokratik Vətən" Partiyasının lideri Petros Makeyana görə, "Sasna Srer" üzvlərinin çağırışları ağır nəticələrə səbəb ola biləcək halların yaranmasını mümkünsüz edir. Çünki xalq hələ aprelin 2-də keçirilmiş saxta parlament seçkilərində satlıq mal kimi alındı və bunun sonluğu olaraq, rüsvayçı seçki kodeksi əsasında mövcud parlament formalaşdırıldı, hansı ki, orada hər kəs sorğusuz-sualsız Serj Sarkisyana nökərçilik edirlər. "Belə bir vəziyyətdə bənzər çağırışlara çətin ki, hay verən olsun, hələlik, bunun zamanı deyil"- bildirən partiya lideri bütün bunlara baxmayaraq, yaxın vaxtlarda dəyişikliklərin baş verəcəyini də istisna etməyib.

Belə ki, jurnalistin "Yaxın vaxtlarda dəyişikliklər olacağını hesab edirsinizmi" sualını cavablandıran Petros Makeyan hesab edir ki, bu il müddətində fars-major vəziyyətlər gözlənilir. O, buna səbəb kimi Qarabağ məsələsinin Kazan variantı vasitəsi ilə həll olunacağı ehtimalını göstərib: "Sarkisyan heç vaxt öz hakimiyyətini əldən vermək fikrində olmadığı kimi, bu dəfə də belə davam edəcək. O, ölkənin birinci adamı olaraq qalmaq iddiasındadır. Bu iki faktor ölkədə fars-major vəziyyətin yaranmasına səbəb ola bilər.

"Məhz bu baxımdan, "Sasna Srer" üzvlərinin çağırışları hər hansı bir nəticələrə gətirib-çıxarmaq ehtimallarını artırır" - deyə Ermənistanın "Demokratik Vətən" Partiyasının lideri proqnoz verib.

Xatırladaq ki, adıçəkilən silahlı qruplaşmanın üzvləri ötən ilin iyulunda Ermənistan hakimiyyətinin aprel müharibəsində uduzmasını, ölkənin uçuruma doğru yuvarlamasını əsas gətirərək, silahlı qiyama əl atmışdı. Bir neçə gün davam edən qarşıdurmaların ardınca, Sarkisyan güc strukturlarına odlu silahdan istifadə əmrini vermişdi. Nəticədə, həm polis, həm də qruplaşma üzvləri arasında ölən və yaralananlar olmuşdu.

**Rövşən NURƏDDİNOĞLU**

## Daxili İşlər Nazirliyi Hacıqabulda keçirilən əməliyyat zamanı tutulan şəxslərin fotolarını yayıb



Daxili İşlər Nazirliyi Hacıqabulda keçirilən əməliyyat zamanı tutulan şəxslərin fotolarını yayıb. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ictimai asayişin və təhlükəsizliyin etibarlı təmin edilməsi, əllərdə olan odlu silah-sursatın və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin daha da gücləndirilməsi məqsədilə nazirliyin müvafiq qurumları Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları ilə birgə rayon ərazisində əməliyyat-axtarış və profilaktik tədbirlər həyata keçiriblər. Nəticədə şübhəli şəxs qismində hər biri əvvəllər məhkum olunmuş 11 nəfər saxlanılıb. Baxış zamanı onların üzərlərindən və yaşadıqları mənzillərdən 1 ədəd avtomat silah, 1 "Makarov" tipli tapança, 4 qumbara, 60 patron, 2 patron darağı və ümumi çəkisi 5 kiloqrama yaxın müxtəlif növ yüksək təsiredici narkotik vasitələr aşkar edilərək götürülüb. Qeyd olunan faktlar üzrə cinayət işləri qaldırılıb, zəruri əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir.

SİYASİ RAKURS

# Müxalifət “liderləri” özləri-özlərini necə təkzib edirlər?

## Yaxud əvvəlcə bir fikir, sonra isə başqa iddia

***Son günlər ənənəvi müxalifət düşərgəsinin, toxunduğu mövzulardan biri də düşdükləri ağır vəziyyətdən çıxış yolu axtarmalarıdır. Maraqlı cəhətlərdən biri də budur ki, onların hər biri elektoratlarının zəif olduğunu etiraf etsələr də, necə deyərlər, “kürəklərini yerə qoymaq” fikri ilə də razılaşmırlar. Bu amil isə, əslində, düşərgənin ən zəif nöqtəsidir ki, bunu etiraf etməyə cürətləri çatmır. Bu arada, sözügedən vəziyyətlə bağlı müxalifət partiyalarının aparıcı adamları da fikirlərini açıqlayarkən, eyni düşüncəyə sahib olduqlarını sərgiləyiblər...***



### ALP sədri Əvəz Temirxan: “Ənənəvi müxalifəti təmsil edən siyasi partiya və qrupların proseslərə adekvat olmayan passivliyi başqa bir zərurəti ortaya çıxarır”

Məsələn, Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan bir tərəfdən etiraf edir ki, müxalifətin apardığı siyasət ictimai rəy tərəfindən qəbul edilmir, digər tərəfdən müxalifətin ictimai rəy qarşısında yenidən ayağa qalxmaq gücündə olduğunu bildirir. SİTAT: “...Xüsusilə, ənənəvi müxalifətin illər uzunu apardığı siyasətdən uzaq fəaliyyəti cəmiyyət daxilində narazılıqla qarşılandığından, proseslərə yanaşmada passivlik hiss edilir. Ənənəvi müxalifəti təmsil edən siyasi partiya və qrupların proseslərə adekvat olmayan passivliyi başqa bir zərurəti ortaya çıxarır. Hesab olunur ki, vəziyyəti ölkənin lehinə çevirmək və köklü islahatları reallaşdırmaq yeni, ətrafında daha çox sayda qüvvəni cəmləyə biləcək siyasi partiya, yaxud hərəkatı zəruri edir. Nəzərə alsaq ki, müxalif düşərgəni təmsil etdiyini bildirən mövcud siyasi partiyalar da o qədər aktiv deyil, bu da proseslərə yeni baxışı labüd etməlidir”.

Göründüyü kimi, ALP sədri çox sayda qüvvəni cəmləyə biləcək siyasi partiya, yaxud hərəkatların yaradılmasını təklif edir, ancaq daha öncə səsləndirdiyi fikri ilə axırıncı fikri bir-birini tamamlamır. Yəni ictimaiyyət müxalifətin apardığı siyasətə dəstək göstərmirsə, müxalifət passivliyi aradan qaldırmaqda çətinlik çəkirsə, əlbəttə, xalq da onlara, ümumiyyətlə, inanmayacaq. Çünki ilk növbədə, düşərgədəki siyasi təşkilatlar özləri üzərində islahatlar aparmağa güc tapmalıdırlar. Fəqət, bu gücün onlarda olmadığı elə mövcud vəziyyətlərindən də bəlli görünür.

### Müsavat partiyasının başqan müavini Elman Fəttah: “Siyasi partiyanın təşkilatlanması mümkün deyil”

Digər fikir isə Müsavat partiyası başqanının müavini Elman Fəttahındır. Müsavatçı funksioner də, demək olar ki, ALP-li həmkarı kimi fikir bildirsə də, digər tərəfdən, öz zəifliklərinin əsas təqsirkarı qismində xalqın olduğunu deyir. Halbuki bu gün təkcə Müsavatda davam edən parçalanmaların və istefaların, bu partiyadan küsərək gedən şəxslərin isə, ayrı-ayrı siyasi təşkilatlar yaratmalarının fonunda başqan müavininin günahı dolayısı ilə xalqda axtarması yolverilməzdir. Müxalifətyönlü mediaya açıqlamasında fikir bildirən E.Fəttah deyib ki, mövcud siyasi şəraitdə təşkilatlanmaları məhduddur və o, siyasi partiyalarla yanaşı, əhali arasında da təşkilatlanma imkanlarının tamamilə məhdud olduğunu düşünür. Maraqlıdır, bu gün ölkədə istənilən şəxs siyasi partiya, QHT və s. qurum yarada bilir və bu istiqamətdə bir çox asanlaşdırıcı proseslər mövcuddur. Elə isə E.Fəttah hansı məhdudiyyətdən danışır? Söz yox ki, düşdükləri ağır və rüsvayçı siyasi durumu pərdələmək üçün hər hansı bəhanəni dilə gətirmək olar, ancaq burada xalqı istər birbaşa, istərsə də dolayısı ilə hədəfə çevirmək, ümumiyyətlə, doğru düşüncə tərzi sayıla bilməz. Ona görə də, “belə vəziyyətdə hansısa siyasi partiyanın geniş miqyasda təşkilatlanması qeyri-mümkündür”- deyən müsavatçı funksionerin “siyasi iş imkanları tamamilə məhdudlaşdırılıb” tipli fikirləri reallığı əks etdirmir.

Üstəlik, təmsil olunduğu partiyasını tərif edərək, digər partiyalardan üstün tutmağa çalışan E.Fəttah, hətta yaradılacaq digər müxalifət partiyasının Müsavatın əldə edə bilmədiyini, məhz həmin partiyanın edəcəyinə inanmadığını bildirib. SİTAT: “İnanmıram ki, Azərbaycanda kimsə siyasi partiya yaradıb, məsələn, Müsavat partiyasının nail ola bilmədiklərinə nail olacaq. Ümumiyyətlə, həmin siyasi partiyanın təşkilatlanması mümkün deyil”.

### Xalq onları dəstəkləmirsə, demək onlar da öz siyasət yollarına birdəfəlik nöqtə qoymağa məhkumdurlar

Ona görə də zəifliklərini xalqda, onları dəstəkləməyən ictimai rəydə axtaran müsavatçı funksioner burada da, necə deyərlər, özünü “yandırıb”. Misal üçün, o, bir yandan deyir ki, guya “ölkədə narazılıq yüksək həddədir”. O biri tərəfdən də, bildirir ki, “insanlar bu narazılığı etiraz müstəvisinə keçirəcək qədər hazırlıqlı deyillər” (?!-R.R.). Yaxşı, əgər onun hesabına görə, narazılar çoxdursa, biz nəyə görə onları Müsavatın, AXCP-nin və s. özündən razı olan müxalifət partiyalarının mitinqlərində görmürük? Bu faktın özü onların real vəziyyətini əks etdirmirmi?

Əslində, fakt göz önündədir və düşərgə təmsilçilərinin bu və ya digər şəkildə çullarını sudan quru çıxarmaq cəhdləri də yersiz görünür. Bir halda ki, xalq onları dəstəkləmirsə, demək, onlar da öz siyasət yollarına birdəfəlik nöqtə qoymağa məhkumdurlar.

**Rövşən RƏSULOV**

# Törədilən cinayət cəzasız qala bilməz

## Əjdər Əliyev: “Düşmənlə əlaqələr qurması barədə faktlar yalnız xəyanət kimi qiymətləndirilə bilər“

***Son günlər AXCP, Müsavat və onların təsiri altında olan qəzetlər, saytlar dövlətimizin imicinə ləkə vurmaq, xalqın milli ruhunu sarsıtmaq üçün geniş əks-təbliğat kampaniyasına başlayıblar. Söz yox ki, bu cür təbliğatın arxasında xarici qüvvələr dayanır.***

Böyük Quruluş Partiyasının Ali Məclisinin sədri Əjdər Əliyev “Səs” qəzetinə açıqlamasında bildirdi ki, fakt bundan ibarətdir ki, özlərini “əsas” müxalifət partiyaları kimi təqdim edən siyasi təşkilatlar tamamilə fəaliyyətsiz vəziyyətdədir: “Xarici qüvvələrin təmənnalı yardımları da arzu etdikləri nəticələri vermir. Genişləndirmək istədikləri əks-təbliğat cəhdləri də ciddi təsirə malik olmayacaq. Çünki xalq əks-təbliğat aparanların özləri haqqında kifayət qədər silinməz yaddaşa malikdir. Bir-biriləri ilə normal, sivil ünsiyyət və mədəni əməkdaşlıq əlaqələri qura bilməyən qüvvələrin təsirli və effektiv təbliğat aparması mümkün deyil. Təbliğatın kəsərli olması üçün şəxsi nümunələr böyük əhəmiyyət kəsb edir. Müəyyən xarici dairələrin müdafiə etdiyi qüvvələrin seçkiqabağı müvəqqəti və qabaqcadan uğursuzluqla nəticələnməyə məhkum olan fəallığının yerini, ehtimal ki, növbəti illərin qış yuxusu tutacaq. Çünki ölkə içərisində yetərli dayağı və müdafiəsi olmayan siyasi qüvvələrin hansı dairələrin, müdafiə etməsindən asılı olmayaraq, uğur qazanması, birmənalı olaraq mümkün deyil.



> “Leyla Yunus sözdə insan hüquqları ilə məşğul olsa da, əsas etibarilə hər zaman Azərbaycana qarşı olan dairələrin və düşmən qüvvələrin maraqlarına daha çox xidmət edib”

“Meydan” TV-nin təsisçisi Emin Milli ermənilərlə geniş əməkdaşlıq əlaqələri qurur və bu əlaqələrin qurulmasında Əli Kərimlinin, Arif Hacılının müəyyən tövsiyələrindən yararlanır. Bununla bağlı nə deyə bilərsiniz” sualına cavab olaraq, Ə.Əliyev bildirdi ki, adını çəkdiyiniz şəxslərin düşmənlə əlaqələr qurması barədə faktlar yalnız xəyanət kimi qiymətləndirilə bilər: “Azərbaycanla Ermənistan müharibə vəziyyətindədir. Bu yaxınlarda DTX əməkdaşlarının sayıqlığı və peşəkarlığı nəticəsində, düşmən ölkə ilə işbirliyində ittiham olunaraq zərərsizləşdirilən casus şəbəkələrinin varlığı onu göstərdi ki, ermənilər bütün cəbhələrdə düşmənçilik fəaliyyətlərini davam etdirirlər. Bu cür cəhdlər, heç şübhəsiz ki, siyasi arenada da mövcuddur. Müharibə vəziyyətində düşmən ölkə ilə özbaşına, separat qaydada əlaqələrin qurulması dünya praktikasında necə qarşılansa, bizdə də onlarla eyni cür rəftar edilməlidir”.

“Əli Kərimli ilə eyni maraqları bölüşən Leyla Yunusun Praqada mənzilləri, İstanbulda obyektləri olduğunu öz təsdiqini tapır. Sizcə, bu cür geniş imkanlar nəyin hesabına əldə olunub” sualına cavab olaraq Ə.Əliyev bildirdi ki, L.Yunus sözdə insan hüquqları ilə məşğul olsa da, əsas etibarilə, hər zaman Azərbaycana qarşı olan dairələrin və düşmən qüvvələrin maraqlarına daha çox xidmət edib: “Bu xidmətlər də sahibləri tərəfindən külli miqdarda qrant və digər səxavətli ödənişlərlə qiymətləndirilib. Ölkə vətəndaşlarının, qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiə etməsi ilə bağlı bir fakta rast gəlmədiyimiz halda, uzun müddət erməni lobbisi ilə, erməni daşnak maraqlarından bir addım da geri çəkilməyən düşmən ölkənin QHT-ləri ilə məmnuniyyətlə uzun müddət əməkdaşlıq edən L.Yunus milli və ölkə maraqlarına qarşı açıq şəkildə çıxış edib. L.Yunus və A.Yunusun birlikdə “hüquq müdafiəçisi” kimi fəaliyyət göstərdikləri müddətdə qanunsuz sahibkarlıqla məşğul olmaları, vergidən yayınmaları və maliyyə uçotu qaydalarını kobud şəkildə pozmaları ilə bağlı faktlar məlumdur. Onların və onlara dəstək verən siyasi qüvvələrin xaricdə olan maliyyə ehtiyatlarını isbatlayan faktların ortaya çıxması törədilən xəyanətlərin isbatıdır”.

**GÜLYANƏ**

# Əhməd bəy Ağaoğlunun millət konsepsiyası

***Ə.Ağaoğlu dövlətçilik tariximizdə mühüm yer tutan millətlər və xalqlar arasındakı qarşılıqlı münasibətlərə dair dəyərli mülahizələr irəli sürmüşdür. Böyük mütəfəkkirin bu görüşləri öz dövründə Azərbaycanda və Türkiyədə milli münasibətlərin, dövlət, xalq və millət münasibətlərinin tənzimlənməsində güclü amillərdən biri olmuşdur.***

Ə.Ağaoğlu özünün "Tərəqqi" qəzetinin 1909-cu il yanvarın 22-də çap etdirdiyi "Millət və millətçilik" məqaləsində azərbaycanlıların bir millət kimi formalaşmasına dair nəzəri və praktiki tövsiyələr irəli sürmüşdür. Müəllif millətin mahiyyəti, dünya millətlərinin yaranması və inkişafı,milli tərəqqi, milli mənəviyyat, xarakter, milli mədəniyyətlə onun əlaqəsi məsələlərini araşdırmışdır. Qərbin və Rusiyanın ideyalarına əsaslanaraq, Ə.Ağaoğlu özünün millət konsepsiyasını yaratmışdır.

Ə.Ağaoğlu millət və milli məsələyə dair sosialistlərlə polemikaya girərək yazırdı: "Bədxahlarım, iftiraçılar və avamlar arasında da bu fikirdə olanlar var. Qəribədir ki, bizdə hüquq, bərabərlik, söz azadlığı, rəiyyətə, əkinçilərə dair bir məqalə və bir nitq bəsdir ki, hər kəsi "əvamünnasın nəzərində sosializm silkinə daxil etsinlər!" Ona görə də, çoxları "İrşad" və "Tərəqqi"nin həmin məsələlərdən bəhs etdiyini nəzərə alaraq, bu qəzetlərlə bərabər mənim haqqımda da eyni qənaətdədirlər. Bu, hələ nədir ki?! Daha qəribə və dəhşətli olan budur ki, bizim milli məsələyə dair mövqeyimizdən "əsl sosialistlər" də narazıdırlar və bizi "hiddətli", "şiddətli millətçi" adlandırırlar.

"Bu iddialardan hansı doğrudur" - sualına cavab verən Ağaoğlu sosialistləri haqlı sayıb deyir ki, "biz millətçi olduğumuzdan qeyri ünvana, qeyri isnada (yəni "sosialist məsləkinə" mənsub olmağa - Ə.M.) haqq, ixtiyar və iddiamız olamaz. Bunu deməkdən bizim qərəzimiz sosializmə həqarət, kərahət, nifrət izhar etmək deyil! Xeyr! Sosializm öylə bir ali, öylə bir müəzzəm təriqətdir (əzəmətli, çox böyük fikir cərəyanıdır) ki, ona mənsub olmaq heç kəsi təhqir edəməz!"

Mütəfəkkir açıq etiraf edir ki, "sosializmin qayeyi-amalı, əsas məqsədi (...) növi-bəşərin mənəvi və maddi səadətidir!". Belə bir məslək sahibi olmaq hər bir şəxs üçün "iftixardan başqa bir şey deyil. Lakin xətamı, səhvimi, ya doğrumu və səvabımı, biz əsrin, vaxtın insanlarının hələ böylə bir müəzzəm və ali təriqətin (oxu: məsləkin, təlimin - Ə.M.) hüsuluna müsaid olacağına qənaəti-vicdaniyyə hasil etməmişik! Biz hələ bu təriqəti-xülyadan və röyadan, xəyal aləmindən olanədd edəriz. Bunun yüz il deyil, yüzlərcə illər müddətində itlaqına (həyata keçməsinə) inanmayırız".

Deməli, bəşəriyyətin "mənəvi və maddi səadəti"ni bir təlim kimi sosializmin "ən yüksək amalı, əsas məqsədi" sayan Ağaoğlu bu məsləki, nəzəri cəhətdən çox yüksək tutduğu halda, onun təcrübədə reallaşmasına, "yüz illər deyil, yüzlərcə illər müddətində" həyata keçmə imkanına dərindən şübhə edir. Bu, mahiyyətcə "sosilazimin utopiyadan həqiqətə çevrilməsi"ni (Engels) tarixən qanunauyğun proses hesab edən marksist konsepsiyanın obyektiv inkarı deməkdir.

Görkəmli tədqiqatçı Əziz Mirəhmədov yazır: "Ağaoğluna görə, hər millətin tarixi, ömrü, həyatı bir sıra "təbii qanunlara tabedir". Millət arasında o qanunlardan xaric nə iş görülsə, süni olub səmərə verə bilməz. Belə qanunların biri də hər millətin labüd olaraq müəyyən tarixi mərhələləri keçməsidir. "Hər fərdin ömründə olduğu kimi, bir millətin ömründə də dövrələr var. Bu dövrələri keçmək məcburi bir əmrdir". Odur ki, "dövrələrin bəzilərini keçmiş", mədəniyyətinin tarixində, həyat yolunda inkişaf edib müəyyən bir dərəcəyə çatmış millətlərin nailiyyətlərini inkişafın ən aşağı pilləsində olan və "həyat meydanına təzə qədəm qoyan millət arasına keçirmək" cəhdi vaxt itirmək, lazımsız işlə məşğul olmaq demək olardı".

V.İ.Leninin "Millətlər ictimai inkişafın burjua dövrünün labüd məhsulu və labüd formasıdır" müddəası baxımından yanaşdıqda, bu mühakimələrin elmi əhəmiyyəti çox aydın nəzərə çarpır.

İctimai inkişafın burjua dövrünün "labüd məhsulu və labüd forması" anlayışlarında nələr nəzərdə tutulur?

Millətin əlamətləri sırasına daxil olan bu amillər: əmtəə tədavülünün inkişafı, kiçik yerli bazarların vahid, ümumi bazar halında birləşməsi və nəticədə, iqtisadi həyat birliyinin yaranması, siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı.

Göstərilən səbəblərə görə millətlərin təşəkkül tapdığı dövrdə millətçilik yüksəlməkdə olan burjuaziyanın feodalizmə və milli zülmə qarşı mübarizəsində ideya bayrağı olur, xalq kütlələrini belə bir mübarizəyə səfərbər edir; aydındır ki, bütün bu proseslər ölkədə milli həyatın və milli hərəkatın oyanması və milli dövlətin yaranması ilə nəticələnir.

Sosializm haqqında ümidsizliyindən fərqli olaraq, milli məsələyə Ağaoğlu daha real, vaxtı çatmış məsələ kimi baxır. O, çox düzgün olaraq, belə hesab edir ki, dünyanın bütün xalqları öz tarixinin müəyyən mərhələsində sosial və mədəni cəhətdən elə "parlaq" bir səviyyəyə çatırlar ki, buna "millətçilik dövrü" demək mümkündür. Xalqın milli özünüdərki, sənaye, elm, mədəniyyət sahəsində böyük nailiyyətləri, məhz bu dövrdə mümkün olur. Məsələn, Fransa, İngiltərə, Almaniya və İtaliyanın bu sahələrdə inkişaf etdikləri dövr "yerləri, göyləri dəyişdirən Jan-Jak Russoları, Volterləri, Lamartinləri, Viktor Hüqoları, Robespyerləri, Napaleonları, Kondersеləri, Taleyranları vücuda gətirən" fransızlardakı haman "nasionalizm hissiyyatı"dır. İtaliyanın Avstriya əsarətindən xilas olmasında da əsas amil Qaribaldilərin fəaliyyəti sayəsində italyanların qəlbində "nasionalizm hissiyyatının" yer tutmasıdır. "Almanları Napoleon əsrindən bəri qalmış fransız əlaqəsindən qurtarıb, Hegellərin əfkarı ilə, Bismarkların əhəmiyyəti ilə əlan aləmə bir nümuneyi-iqtidar, bir imtisali-əzəmət halına gətirən genə haman nasionalizm olmadımı?" Qoca Osmanlı dövlətində də eyni proses getmişdir. Bu ölkənin fəlakətdən xilas olub yüksəlməsində Ənvərlərin, Niyazilərin qəlblərinə milli hisslərin təlqin olunmasında həlledici xidmət Əbdülhəq Hamidlərə, Kamallara aiddir.

Beləliklə, "millət və millətçilik" mövzusu ətrafında mühakimələrində Ağaoğlu elmi cəhətdən əsaslandırılmış müsbət müddəalarla bərabər, idealist tarixi konsepsiyaların təsirlərindən də azad deyil. Mühakimələrinin əvvəlində millətin təşəkkülü üçün milli özünüdərki, sənaye, texnika, elm və mədəniyyətin inkişafını həlledici saydığı halda, bu fikrinin şərhində tamam başqa yol tutur; adları çəkilən ölkələrin müqəddəratı, tarixi inkişafı haqqında danışarkən, hər şeyi milli hisslərlə bağlayıb, cəmiyyətin aparıcı qüvvələri, xalq, onun sosial idealları, əməyi və milli istiqlaliyyət mübarizəsi kimi məsələləri nəzərə almır. Ölkələrin tarixi müqəddəratını dəyişdirən amil olaraq, ya təkcə "nasionalizm hissiyyatının", ya "nəfəxati-milliyyə" (milli mənafe), ya da ən yaxşı halda, "nasionalizm əfkar və hissiyyatının" götürülməsi də yenə eyni metodoloji məhdudluğun nəticəsidir.

Azərbaycan üçün millətçiliyi "tərəfi-rəbbanidən müqəddər bir dövreyi-həyat", yəni Allah tərəfindən təyin olunmuş həyat tərzi hesab etdikdə, mütəfəkkir özünün o zamankı səciyyəvi bir keyfiyyətini - dindən ideoloji silah kimi istifadə etdiyini göstərir ki, bu da bəşər tarixində milli şüurun dini şüurdan sonra yarandığı barədə qanunauyğunluğa zidd baxış idi.

"Nasionalizm dövrü"nün xarakteristikası Ağaoğlunun görüşlərindəki "tilsimli dairə"ni daha bariz surətdə üzə çıxarır. Onun fikrincə, hər bir millətin ömründə bu dövr "mayanın xəmirə təsir edib qığırması kimidir: nasionalizm dövrəsində millət özünə gəlir, özünü tanıyır, onun cümlə üzvləri cabəca olub millətin vücudu, bədəni qəribə bir mətanət, bir mükəmməliyyət kəsb edir, qüvayi-ruhaniyyə və madiyyəsi övci-əlaya (uca pillə) çatıb da tarixinin ən müəzzəm səhifələrini bu dövrə təşkil edir".

Deməli, yenə xalqın taleyi, "ruhani və maddi qüvvələri", bütünlüklə, "millətçilik dövrü" ilə, milli özünüdərklə bağlandığından, tarixi inkişafın digər hərəkətverici amilləri mühakimədən kənarda qalır.

"Biz gərək Avropanı təqlid edək!" kimi qəti hökm ortaya atmasına Ə.Mirəhmədov milli tərəqqi yolları haqqında onun idealist məhdudluğu ilə əlaqələndirir. Amma öyrənmək, "ibrət dərsi almaq", nümunə götürmək, Avropa ilə texniki əlaqə yaratmaq məsələsini o, əsasən, düzgün həll edir, həm də qəti xəbərdarlıq edir ki, "kəsb etdiyimiz şeyləri, aldığımız işləri gərək korkoranə etməyək!" Avropadan ancaq elmləri və sənayeni "təşxis və təmyizsiz", yəni olduğu kimi, bütünlüklə, götür-qoy etmədən almaq mümkündür. Çünki "ülum və sənaye hər yerdə olursa-olsun, ümuminsanların, insaniyyətin malıdır! Onlar zaman və məkandan, hər bir rəngdən, şərtdən mücərrəddirlər (təcrid olunmuş). Lakin qeyri binalara (təşəbbüs), fikirlərə, hisslərə gəldikdə, gərək ehtiyatlı, diqqətli olaq. Çünki bu binalar, bu fikirlər, bu hisslər Avropanın hal-hazırına münasibdirlərsə, bizim hamımıza, əhvalımıza münasib deyildir. Avropa əlan dövreyi-nasionalizmi keçib, biz isək dövreyi-nasionalizmə əvvəlinci qədəmlərimizi qoyuruz. Bu təfavütdən naşi olaraq bəzi əfkar, bəzi hissiyyat-Avropada təbii olduğu kimi, bizlərdə məcnun (süni, qondarma) olduğundan zərərdən başqa bir şey verə bilməz".

Göründüyü kimi, bu mülahizələr iki əsas qismə bölünür: birinə elmlər və sənaye, digərinə isə "qeyri binalar, fikirlər, hisslər" daxildir.

Birincisində Qərbdən gen-bol istifadəni mümkün sayan müəllif, ikincisində müstəqillik, orijinallıq yolunu zəruri hesab edir. Əlbəttə, birinci yol ("təşxissiz və təmyizsiz") mübaliğəli və mübahisəlidir. Şərqin böyük mütəfəkkirlərinin çoxu, ümumiyyətlə, Qərbə passiv, təqlidçi münasibəti pisləmişlər. Qərbdən öyrənməyin yolları barədə xeyli düşünəndən sonra, belə bir düzgün nəticəyə gəlmişlər ki, Şərqin hər bir ölkəsi öz konkret şəraitinə müvafiq yolla gedib, işlərini yerli, milli şəraitin imkan və tələbləri dairəsində qurmalıdır.

Ə.Ağaoğlu öz millətinin parlaq zəkalarının mütərəqqi ideyalarının təsiri altında millətlərin inkişaf etdiyini "Avropa millətləri sırasına" daxil olduqlarını göstərir. Bu barədə belə yazır: "Həqiqi millətçilər millətini tənqid etməkdən, millətin üyubatını, qüsurlarını görkəzməkdən, millətinin azarlarını-dərdlərini arayıb da, açıq-açığa deməkdən, nəinki çəkinməyiblər, bəlkə bir an belə qafil olmayıblar və həmçinin, həqiqi millətçilər qeyri millətlərin arasında olan gözəl sifətləri, gözəl adətləri, gözəl binaları öz milləti üçün imtisal edib (nümunə götürmək), millətini bu günə şeyləri əxz etməyə təhrik və təşviq etməkdən çəkinməyiblər. Cümlə millətlər üçün səadət və fəlahət (xoşbəxtlik) yolu bu olmuşdur!"

Böyük mütəfəkkirin fikrincə, millətçinin nəzərində gərək sultan ilə rəiyyət, varlı ilə kasıb, xan ilə kəndli arasında fərq qoyulmasın.

Çox haqlı olaraq Əziz Mirəhmədov Ə.Ağaoğlunun millət konsepsiyasının yüksək dəyərləndirərək yazmışdır: "Məqalənin ("Millət və millətçilik" - V.Ö.) mühüm və səciyyəvi cəhətlərindən biri uzun zaman yorulmadan islamçılıq ideyaları təbliğ edən mütəfəkkir xadimin artıq öz keçmiş təsəvvürlərindən xeyli dərəcədə uzaqlaşıb əsrin daha mütərəqqi ideyalarına qüvvətli meyil göstərməsi barədə sətirlərdir".

Beləliklə, Ə.Ağaoğlunun millət konsepsiyası öz dövründə mütərəqqi əhəmiyyət kəsb edərək, müasirlik baxımından dəyərli bir konsepsiya kimi, Azərbaycan dövlətçiliyi tarixində nəzəri və praktiki əhəmiyyətilə diqqəti cəlb edir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

## İnsan həyatının "dadlı düşməni"



Alimlərin yeni araşdırmasına görə, tez-tez qızardılmış kartof yeyən insanlarda erkən ölüm riski digərlərinə nisbətən daha çoxdur. Elm adamları bu nəticəyə aparılan təcrübədən sonra gəliblər.

AZƏRTAC "The American Journal of Clinical Nutrition" dərgisinə istinadla xəbər verir ki, tədqiqat üçün 45-79 yaşarası 4500-ə yaxın insanın üzərində təcrübə aparılıb. Onlar iştirakçıları kartofun qəbul miqdarına görə qruplaşdırıblar. Səkkiz il ərzində pasiyentlərdən 236-sı dünyasını dəyişib. Tədqiqatın nəticəsinə əsasən, həftədə iki dəfə və ya çox qızardılmış kartof yeməyin erkən ölüm riskini iki dəfə artırdığı məlum olub. Alimlər yağda qızardılmış istənilən qidanın cinsindən və yaşından asılı olmayaraq insan orqanizmi üçün ziyanlı olduğunu bildiriblər.

## Süd pəhrizi: həm arıqladır, həm də dişlərin ağarmasına yaxşı təsir göstərir

Süd pəhrizi süd, kefir, xama, evdə hazırlanan kəsmik, yoqurt və hər növ pendirdən ibarətdir. Onun bəzən "ağ pəhriz" adlandırılmasının səbəbi də elə bununla bağlıdır. Süd məhsulları toxluq hissi yaradan zülal və faydalı maddələrlə zəngindir. Ona əməl edərkən yalnız kərə yağı və dondurmadan uzaq olmaq lazımdır, çünki həmin məhsullar çox yağlı olduğundan yüksək kalorilidir. Vacib məsələlərdən biri də mütəmadi olaraq su içilməsidir. Pəhriz zamanı vitamin kompleksi qəbul edilməlidir, çünki orqanizmi yalnız süd məhsullarının ümidinə qoymaq olmaz.



AZƏRTAC xəbər verir ki, süd pəhrizinə əməl etməyin bir sıra şərtləri var. Birincisi, yağlılıq faizi az olan ərzaqlara üstünlük verilməlidir. Bu, o demək deyil ki, 1-2 qram yağ çəkini artırır, sadəcə, yüksək yağlılıq ürək-damar sisteminin işini pozur.

İkincisi, süd məhsullarına meyvə-tərəvəz əlavə edilməlidir. Meyvəni kefirə və ya kəsmiyə qatmaq, tərəvəzləri isə çiy halda yemək olar. Armud, turş və sitrus meyvələri menyudan çıxarılmalıdır. Alma, banan, ərik və şaftalı, qurudulmuş halda gavalı və üzüm yemək olar.

Süd pəhrizinə bir həftə əməl edilməsi 5 kiloqramdan artıq çəki itirməyə səbəb olur. Bu pəhriz arıqlamaqla yanaşı, dərinin vəziyyətinə də yaxşı təsir göstərir. Pəhriz müddətində gün ərzində dörd dəfə qidalanmaq və hər dəfə qidadan əvvəl 1 stəkan mineral su içmək məsləhət görülür.

Qastrit və mədə xorasından əziyyət çəkənlər süd pəhrizi saxlamamalıdırlar. Həkimlər ağartı məhsullarının boş mədəyə qəbul edilməsinin əleyhinədirlər. Süddən çox istifadə edilməsi kalsium mübadiləsini poza və orqanizmdə şlakların toplanmasına gətirib çıxara bilər.

Süd pəhrizinin saxlanılması dişlərin ağarmasına da çox yaxşı təsir göstərir. Bir həftə saxlanılan pəhriz nəticəsində dişlər tam ağarmasa da rəngi açılır. Pəhriz həzmetmə orqanlarının işini normalaşdırır, bağırsağı təmizləyir, immuniteti və orqanizmin viruslara qarşı dözümünü artırır. Süd məhsullarının tərkibindəki kalsium sümükləri möhkəmləndirir, sinir sistemini normaya salır.


# səs

Son səhifə 3 avqust


## "Qarabağ" Çempionlar Liqasının "pley-off"unda!



Futbol üzrə UEFA Çempionlar Liqasında 3-cü təsnifat mərhələsinin cavab oyunlarına start verilib. Qol.az-ın məlumatına görə, ilk oyun gününün yeganə qarşılaşmasında Azərbaycan çempionu "Qarabağ" Moldovanın "Şerif" klubunun qonağı olub. Rəqibinə 2:1 hesabı ilə qalib gələn Qurban Qurbanovun komandası pley-off mərhələsinə yüksəlib. Bununla da, Ağdam təmsilçisi Azərbaycan futbolunda yeni tarix yazıb. Çünki indiyədək heç bir klubumuz ÇL-in pley-off mərhələsinə yüksələ bilməyib. Qeyd edək ki, "Qarabağ" "pley-off"a adlamaqla ən azından Avroliqanın qrup mərhələsinə vəsiqəni təmin edib.




## Neymar "Barselona"da komanda yoldaşları ilə sağollaşıb

"Barselona" Neymarın klubu tərk etmək istədiyini açıqlayıb. SİA-nın məlumatına görə, 25 yaşlı braziliyalı hücumçu klub rəhbərliyindən icazə alaraq komandanın bu gün səhər baş tutan məşqində iştirak etməyib: "Neymar səhər məşqindən əvvəl karyerasını "Barselona"da davam etdirmək istəmədiyini açıqlayıb. Ona görə də futbolçuya gələcək karyerası ilə bağlı işlərini qaydasına salması üçün məşqdə iştirak etməməyə icazə verilib. Neymar komanda yoldaşları ilə sağollaşıb". Futbolçunun 222 milyon avro qarşılığında Fransanın PSJ klubuna transfer olunacağı gözlənilir.

## Azərbaycan Premyer Liqasının 2017/2018 mövsümünün püşkü atılıb




Avqustun 2-də AFFA-nın inzibati binasında Topaz Premyer Liqasının 2017/2018-ci il mövsümünün püşkatma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Topaz Premyer Liqası klublarının, futbol ictimaiyyətinin və mətbuat nümayəndələrinin iştirak etdikləri tədbirdə Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev çıxış edərək qarşıdakı mövsümdə tətbiq olunacaq yeniliklər barədə məlumat verib, klublara uğurlar arzulayıb. Püşkün nəticəsinə əsasən, Topaz Premyer Liqasının birinci turunda "İnter" - "Qəbələ", "Neftçi" - "Qarabağ", "Zirə" - "Səbail", "Sumqayıt" - "Kəpəz" komandalarının oyunları keçiriləcək. Qeyd edək ki, Azərbaycan Premyer Liqasına avqustun 11-də start verilməsi nəzərdə tutulub.

## Güləşçilərimiz yeniyetmələrin Avropa çempionatında 4 qızıl, 3 gümüş və 3 bürünc medal qazanıblar



Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yeniyetmə güləşçilər arasında Avropa çempionatı keçirilib. Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, çempionatda iştirak edən yığma komandalarımız ümumilikdə 4 qızıl, 3 gümüş və 3 bürünc medal qazanıblar. İlk yarış günlərində mübarizəyə qoşulan sərbəst güləşçilərimizdən Tofiq Əliyev (42 kq), Hacımurad Hacıyev (63 kq) və Abdulmüslüm Mamedov (76 kq) yalnız final görüşündə uduzaraq gümüş medala yiyələnib. Turan Bayramov (58 kq) isə bürünc medal qazanıb. Üç gümüş və bir bürünc medal qazanan gənc sərbəst güləşçilərimiz komanda hesabında isə 61 xalla Avropa ikincisi olub. Rusiya birinci, Türkiyə yığması isə çempionatı üçüncü sırada tamamlayıb. Gənc qızların mübarizəsində isə komandamızın üzvləri yarışı 1 qızıl və 1 bürünc medalla başa vurub. Şahanə Nəzərova (38 kq) bütün rəqiblərindən üstün olaraq çempionatın qızıl medalını qazanıb. Bürünc medalı isə yığmamıza Yasəmən Məcidli (43 kq) qazandırıb.

Son yarış günlərində mübarizəyə qoşulan yunan-Roma yığmamızın üzvləri 3 qızıl və 1 bürünc medala sahib olub. Qızıl medalları yığmamıza Həsrət Cəfərov (42 kq), Zaur Əliyev (46 kq) və Asim İmanzadə (69 kq) qazandırıb. Həsən Məmmədli (58 kq) isə bürünc medala sahib olub. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Qərib Əliyev təmsil edib.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir. "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**